RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 247 (8840) ÇƏRŞƏNBƏ AXŞAMI 16 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# TÜRK DÜNYASININ ZƏFƏR KOMANDANI



**Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin verilməsi onun təkcə Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərinə və möhtəşəm Zəfərə görə deyil, həm də türk dövlətlərinin bir əsr əvvəl məkrli şəkildə pozulmuş coğrafi əlaqələrinin yenidən bərpasına yaratdığı real təminata görədir!**

Bax: səh. 3

## Prezident fərman imzalayıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.

Bax: səh. 2

## Xilaskarın quruculuq missiyası



İlham Əliyevin bir il öncəki Qələbə səfəri ilə Qarabağın və Şərqi Zəngəzurun yeni həyatının təməli qoyuldu

Bax: səh. 4

## Xoşməramlı missiyanın qlobal təcəssümü




Mehriban xanım Əliyevanın timsalında Azərbaycan 75 yaşlı UNESCO-nun fəaliyyətinə mühüm töhfələr verir

Bax: səh. 5

## Zəfər büdcəsi

Milli Məclis müstəqillik tariximizin ən böyük maliyyə sənədini müzakirəyə çıxarır



Bax: səh. 5

## Bakıda Beynəlxalq Biznes-Forum keçirilir

Noyabrın 15-də Bakı Konqres Mərkəzində 25-ci Beynəlxalq Biznes-Forum (İBF - International Business Forum) öz işinə başlayıb.

Bax: səh. 2

## Ermənistan silahlı qüvvələri növbəti təxribat törədiblər

Ermənistan silahlı qüvvələrinin bölmələri noyabrın 15-i gecə saatlarından başlayaraq Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik və Yellicə yaşayış məntəqələrində yerləşən mövqelərini atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mövqelərimiz heç bir səbəb olmadan snayper tüfəngi və qumbaraatan da daxil olmaqla müxtəlif çaplı atıcı silahlardan istifadə edən qarşı tərəfin intensiv atəşinə məruz qalıb.

Bundan əlavə, bu istiqamətdə infrastrukturun bərpası məqsədilə yol işləri aparan traktorumuz və bölmələrimizə təminat daşıyan iki ədəd KamAZ markalı avtomobil də noyabrın 15-i səhər saatlarında Ermənistan hərbi bölmələri tərəfindən atəşə tutulub.

Texnikaya zərər dəysə də, şəxsi heyət arasında xəsarət alan olmayıb.

Ermənistan silahlı qüvvələrinin təxribatlarının, həmçinin döyüş mövqelərində aparılan mühəndis işlərinin qarşısını almaq məqsədilə bu istiqamətdə yerləşən bölmələrimiz tərəfindən plana uyğun adekvat tədbirlər görülür.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Müdafiə Nazirliyi bir daha bildirir ki, dövlət sərhədində yaradılan istənilən qarşıdurmanın nəticələrinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək.

# "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1144) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissədə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin" sözləri "Azərbaycan Ordusunun" sözləri ilə əvəz edilsin.

2. Preambulanın üçüncü abzasında "silahlı qüvvələrdə" sözləri "Azərbaycan Ordusunda" sözləri ilə əvəz edilsin.

3. 2-ci hissəsinin ikinci - səkkizinci abzasları aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikasının maliyyə naziri

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsi müdirinin müavini.".

4. Aşağıdakı məzmunda 3-1-ci, 3-2-ci və 3-3-cü hissələr əlavə edilsin:

"3-1. Müəyyən edilsin ki, bu Fərmanın məqsədləri üçün "qüsursuz xidmət" müddəti dedikdə, bu Fərmanın 3-2-ci hissəsində nəzərdə tutulan müddət istisna olmaqla, hərbi qulluqçuların həqiqi hərbi xidmət müddəti nəzərdə tutulur.

3-2. Aşağıdakı müddətlər hərbi qulluqçunun qüsursuz hərbi xidmət müddətinə daxil edilmir:

3-2.1. hərbi rütbəni aşağı salma intizam tənbehinin daha əvvəl hərbi qulluqçunun üzərindən götürülməsi halları istisna olmaqla, həmin intizam tənbehi tətbiq edildiyi gündən bir il müddəti;

3-2.2. hərbi xidmət əleyhinə olan inzibati xəta törədilməsinə görə çıxarılmış inzibati tənbeh vermə haqqında qərarın icrasını bitirdiyi gündən bir il müddəti;

3-2.3. məhkumluğun olduğu müddət.

3-3. Azərbaycan Ordusunun 20 təqvim ili və daha çox xidmət etmiş hərbi qulluqçusu bu Fərmanın 3-2-ci hissəsində nəzərdə tutulmuş müddətlərdə bu Fərmana uyğun olaraq dövlət vəsaiti hesabına mənzillə təmin edilə bilməz.".

5. 4-cü hissədə "Maliyyə Nazirliyi" sözlərindən sonra "Komissiyanın katibliyi funksiyalarını həyata keçirsin və" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2021-ci il*

# Rasim Həsən oğlu Əliyev



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan memarlıq məktəbinin tanınmış nümayəndəsi, Dövlət mükafatı laureatı, Əməkdar memar Rasim Həsən oğlu Əliyev 2021-ci il noyabrın 13-də ömrünün 88-ci ilində vəfat etmişdir.

Rasim Əliyev 1934-cü il iyul ayının 16-da Gəncə şəhərində anadan olmuşdur. O, 1958-ci ildə Azərbaycan Politexnik İnstitutunu memarlıq ixtisası üzrə bitirmişdir.

Rasim Əliyev ali təhsilini başa vurduqdan sonra, 1958-1965-ci illərdə "Azərdövlətlayihə" İnstitutunda işləmişdir. O, 1965-1974-cü illərdə Bakı şəhərinin baş memarının birinci müavini və 1974-1988-ci illərdə baş memarı vəzifələrində çalışmış, eyni zamanda 1980-1988-ci illərdə Azərbaycan Memarlar İttifaqının katibi olmuşdur.

Rasim Əliyev həyatını quruculuq işlərinə sərf edərək Azərbaycanda şəhərsalma, tikinti və memarlıq sahəsinin inkişafına layiqli töhfələr vermişdir. O, Bakının, eləcə də respublikanın digər şəhərlərinin planlaşdırılması və tikintisinə dair çox sayda layihənin müəllifi olmuşdur. İçərişəhərin regenerasiya planı da bilavasitə onun başçılığı ilə hazırlanmışdır. Ölkə miqyasında bir sıra obyektlərin layihələndirilməsi işinə rəhbərlik edən Rasim Əliyev özünün yüksək peşəkarlığı, təşəbbüskarlığı və əməksevərliyi sayəsində həmin layihələrin uğurla həyata keçirilməsində təqdirəlayiq fəaliyyət göstərmişdir. Heydər Əliyev adına Bakı Beynəlxalq və Naxçıvan hava limanlarının, Bakı Metropoliteninin bir neçə stansiyasının, Bakı şəhərinin simasını müəyyənləşdirən bir çox binaların, yaşayış massivlərinin və əsas parkların, habelə paytaxtda və digər şəhərlərimizdəki mərkəzi meydanların və mədəniyyət saraylarının, həmçinin xatirə abidələrinin işlənib hazırlanmasında onun əvəzsiz xidmətləri vardır. Sənətkarın layihələndirdiyi bütün bu memarlıq nümunələri özünün maraqlı həcm-məkan kompozisiyası və monumentallığı ilə səciyyələnir. Rasim Əliyev zəngin irsi ilə memarların gənc nəslinin bədii-estetik zövqünün formalaşmasında və peşəkarlığının təşəkkülündə mühüm rol oynamışdır.

Rasim Əliyevin ölkəmizdə memarlığın inkişafında xidmətləri və şəhərsalma sahəsindəki uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 1979-cu ildə Əməkdar memar fəxri adını almış, 1982-ci ildə Dövlət mükafatına layiq görülmüş, 2000-ci ildə müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət", 2009-cu ildə "Şərəf" və 2014-cü ildə "İstiqlal" ordenləri ilə təltif edilmişdir.

Tanınmış memar, səmimi insan Rasim Həsən oğlu Əliyevin əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev, Mehriban Əliyeva, Əli Əsədov, Sahibə Qafarova, Samir Nuriyev, Eldar Əzizov, Fərəh Əliyeva, Anar Kərimov, Anar Quliyev, Ömər Eldarov, Elbay Qasımzadə, Fərhad Xəlilov, Fazil Nəcəfov, Hafiz Əmirxanov**

# NATO alyans ilə tərəfdaşlığa görə Azərbaycana təşəkkür edib

Noyabrın 15-də Belçikanın Brüssel şəhərinə işgüzar səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov NATO-nun mənzil-qərargahında qurumun Baş katibinin müavini Mirça Ceoana ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə NATO-Azərbaycan tərəfdaşlığının aktual məsələləri, inkişaf perspektivləri, eləcə də regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Xarici işlər naziri Azərbaycan-NATO tərəfdaşlığının bir sıra istiqamətləri üzrə əldə edilmiş nəticələrdən məmnunluq ifadə edib. Ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına dəstəyi kontekstində NATO əməliyyatlarına töhfələri məsələsinə toxunub. Nazir Vətən müharibəsi nəticəsində işğaldan azad etdiyimiz ərazilərdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən bərpa və quruculuq işləri barədə NATO rəsmisinə məlumat verib. Torpaqlarımızın işğalı amilinin aradan qaldırılması ilə Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla münasibətləri normallaşdırmağa hazır olduğu vurğulanıb.

NATO tərəfi Azərbaycanın müdafiə islahatları və NATO missiyalarına töhfələrini yüksək qiymətləndirib. Baş katibin müavini Azərbaycana alyans ilə tərəfdaşlığa, xüsusilə də Əfqanıstanda həyata keçirilən əməliyyatda iştirakına görə təşəkkürünü bildirib.

Tərəflər Sülh Naminə Tərəfdaşlıq Proqramının məqsəd və prinsiplərinə uyğun olaraq siyasi dialoq və praktiki əməkdaşlığın davam etdirilməsinə hazır olduqlarını ifadə ediblər.

# Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif olunması Qələbəmizin böyüklüyünü təcəssüm etdirir



"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Qarabağın işğaldan azad olunması və türk birliyinin daha da güclənməsi işinə töhfələrinə görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Türk Dünyasının Ali Ordeni ilə təltif edildi. Növbəti digər mühüm məsələ isə öz növbəsində türk dövlətlərini vahid çətir altında birləşdirən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adını dəyişərək Türk Dövlətləri Təşkilatı adlanması qurumun funksiyasının genişlənməsinə, daha sistemli və dinamik işin aparılmasına fokuslanmış bir addımdır. Bu gün türk dövlətləri öz qüdrətli dövrlərini yaşayır. Məhz belə bir tarixi şəraitdə üzvlərin bir-biri ilə sıx əlaqələr qurması, yaradılmış əlaqələrin genişləndirilməsi, ölkələrimiz arasındakı tarixi dostluq, qardaşlıq prinsiplərinin daha da möhkəmlənməsi həm dövlətlərimizin, həm də regionun maraqlarına geniş şəkildə xidmət edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis Sədrinin müavini Adil Əliyev ifadə edib.

O bildirib ki, hazırda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin sayı 7-yə çatıb. Bu da o deməkdir ki, təşkilata böyük maraq var, aparılan sistemli və dinamik iş, əldə edilmiş uğurlar eyni etnik kimliyə məxsus olan xalqların vahid təşkilat ətrafında birləşməsi prosesini olduqca sürətləndirir. Xüsusilə vurğulamaq lazımdır ki, bu təşkilatda təmsil olunan dövlətlərin regionda və dünyada söz sahibi olması təşkilatın sıralarının genişlənməsi ilə şərtləndi. Bir mühüm məqam da ondan ibarətdir ki, Türkmənistan artıq təşkilata müşahidəçi qismində qoşulub, daha əvvəl isə ölkəmizdə təşkil edilmiş Bakı Zirvə Görüşündə Özbəkistan Şuraya üzv olub. Bu gün təşkilatın üzvlərinin sayı 7-dir. Halbuki, 2009-cu ildə Naxçıvan Sazişini dörd ölkə imzalamışdı. Deməli, təşkilatın sıraları genişlənir və üzv olmaq istəyən ölkələrin sayı artır.

"Təkcə bir məqamı qeyd etmək yerinə düşər ki, təşkilatın fəal üzvlərindən biri olan Azərbaycanın Vətən müharibəsi zamanı 44 gün ərzində 30 il düşmən işğalı altında qalmış əzəli və əbədi torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü bərpa etməsi ölkəmizin gücünün, qüdrətinin əyani təcəssümü idi. Xüsusi vurğulamaq lazımdır ki, bu illər ərzində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilərkən dərhal icra olunması nəzərdə tutulmuş qətnamələr yerinə yetirilmədi, humanitar hüququn tələblərini kobud şəkildə pozan Ermənistan münaqişənin sülh yolu ilə həllini istəmədi. Düşmənin bu cür məsuliyyətsiz davranışının qarşısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusu tərəfindən alındı və döyüş meydanında düşmənə sarsıdıcı zərbə vuruldu. Qazandığımız tarixi Zəfər təkcə ölkəmizin deyil, eləcə də türk dünyasının, Azərbaycanı sevənlərin qələbəsi idi", - deyə Milli Məclis Sədrinin müavini vurğulayıb.

A.Əliyevin sözlərinə görə, təşkilata daxil olan və dünyada çox böyük nüfuza malik qardaş Türkiyənin Vətən müharibəsi başladığı ilk gündən ölkəmizə göstərdiyi mənəvi yardım, eləcə də diplomatik müstəvidə nümayiş etdirdiyi siyasi dəstək hər bir azərbaycanlı tərəfindən böyük rəğbətlə qarşılandı. Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır" deməsi ölkəmizə əlavə güc verdi. Eləcə də tarixi torpaqlarımız düşmən işğalından azad edildikdən sonra ərazilərimizin bərpasına ən çox dəstək verən ölkə də qardaş Türkiyədir. Bu baxımdan regionda söz sahibi olan dövlətlərin bir çətir altında toplanması gücümüzə əlavə güc qatacaq.

# Bakıda XXV Beynəlxalq Biznes-Forum keçirilir






Noyabrın 15-də Bakı Konqres Mərkəzində XXV Beynəlxalq Biznes-Forum (İBF - International Business Forum) öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, forum iştirakçıları tədbir çərçivəsində Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad ediblər.



Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Türkiyə Respublikasının Ticarət Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) və İBF-nin təşkilatçılığı ilə keçirilən forumda 30-a yaxın ölkədən dövlət rəsmiləri, iş adamları, investorlar, beynəlxalq təşkilatların və diplomatik korpusun nümayəndələri iştirak ediblər. "Azərbaycan: Asiyanın incisi" şüarı ilə keçirilən forumun məqsədi Azərbaycanın investisiya imkanlarını, o cümlədən işğaldan azad olunmuş ərazilərimizin zəngin potensialını xarici sərmayədarlara təqdim etmək, iştirakçı ölkələr arasında iqtisadi-ticarət əlaqələrini, biznes sahəsində əməkdaşlığı genişləndirməkdir.

Tədbir Beynəlxalq Biznes-Forumun ənənələrinə uyğun olaraq müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlayıb.

Forum çərçivəsində Azərbaycan-Türkiyə qardaşlığı, ölkəmizin əlverişli biznes və investisiya mühiti barədə filmlər nümayiş etdirilib.

Tədbirin açılışında çıxış edən Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizin ilk dəfə beynəlxalq biznes-foruma evsahibliyi etməsinin əlamətdar hadisə olduğunu, tədbirin Azərbaycanın biznes və investisiya mühitinin geniş investor auditoriyasına tanıdılması, yerli və xarici investorlar arasında əlaqələrin inkişafı, innovativ təşəbbüslərin formalaşması və yeni layihələrin reallaşdırılması üçün geniş imkanların yaradılması baxımından əhəmiyyətini qeyd edib. İqtisadiyyat naziri Azərbaycan iqtisadiyyatının prioritet sahələri barədə məlumat verib, qarşıya qoyulmuş hədəflərin reallaşdırılması istiqamətində görülən tədbirləri diqqətə çatdırıb.

Azərbaycan iqtisadiyyatının inkişaf mənzərəsinin, eləcə də sabit makroiqtisadi vəziyyətin ölkəmizdə biznes layihələrin icrası istiqamətində qərarların verilməsində mühüm rol oynadığını vurğulayan iqtisadiyyat naziri iqtisadi göstəricilər barədə ətraflı məlumat verib. Bildirilib ki, hazırda Azərbaycanın strateji valyuta ehtiyatları 52 milyard ABŞ dollarını ötüb ki, bunun da ÜDM-ə nisbəti 108 faizdir və xarici dövlət borcunu 6 dəfədən çox üstələyir. Bu ilin yanvar-sentyabr aylarında ÜDM 4,8 faiz, qeyri-neft sektorunda isə 6,2 faiz artıb. ÜDM-də qeyri-neft sektorunun payı 64 faiz təşkil edib. Sənayenin inkişafına xüsusi diqqət yetirildiyini qeyd edən nazir bu sahədə sənaye zonaları, investisiya təşviqi sənədi kimi mütərəqqi alət və mexanizmlərin tətbiq edildiyini diqqətə çatdırıb, sənaye zonalarına 6,7 milyard manat investisiya yatırımının nəzərdə tutulduğunu, artıq 6,3 milyard manat investisiya qoyuluşunun həyata keçirildiyini bildirib. Nazir qeyd edib ki, bu ilin 9 ayında qeyri-neft ixracı 41 faizədək artıb ki, bu, indiyədək müşahidə olunan ən yüksək göstəricidir. Qeyri-neft sənayesi məhsulları ixracı 1,6 dəfə artıb. Sənaye məhsulları ixracının 320 milyon dolları sənaye zonalarının payına düşür ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

Azərbaycanın əlverişli coğrafi mövqeyinin, böyük tranzit potensialının, müasir infrastrukturunun, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən regional layihələrin xarici birbaşa sərmayələrin cəlbi üçün əsas faktorlar olduğunu vurğulayan iqtisadiyyat naziri investorları fəal əməkdaşlığa dəvət edib.

Biznes-forumda torpaqlarımızın işğaldan azad edilməsinin böyük tarixi-siyasi və iqtisadi önəm kəsb etdiyi qeyd olunub. Vurğulanıb ki, türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan bu tarixi Qələbəyə görə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Türk Dünyasının Ali Ordeni ilə təltif olunub. Diqqətə çatdırılıb ki, Qarabağda geniş regional inteqrasiya imkanları var və burada bərpa-quruculuq işlərinə MÜSİAD üzvlərinin biznes subyektlərinin cəlb olunması iqtisadi-ticarət əməkdaşlığına önəmli töhfə verəcək.

Türkiyə Respublikasının xəzinə və maliyyə nazirinin müavini Nureddin Nebati Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin dirçəldilməsi layihələrində Türkiyə şirkətlərinin fəal iştirak etdiyini, bunun iqtisadi əməkdaşlığa, biznesin dirçəlişinə, yeni müəssisələrin və iş yerlərinin açılmasına əhəmiyyətli töhfə olacağını vurğulayıb, kənd təsərrüfatı, turizm, tikinti, bərpa olunan enerji və digər sahələrdə işbirliyinin, təcrübə mübadiləsinin daha da genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüb. N.Nebati Türkiyə və Azərbaycan arasında qarşılıqlı ticarətin həcminin 15 milyard dollara çatdırılması hədəfinin də əməkdaşlığın gücləndirilməsinə əlavə stimul yaratdığını diqqətə çatdırıb.

Beynəlxalq Biznes-Forumun prezidenti Erol Yarar, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və MÜSİAD-ın İdarə Heyətinin sədri Mahmut Asmalı çıxışlarında forumun Azərbaycanda keçirilməsinin önəmini, tədbirin yeni əlaqələrin qurulmasına və investisiya qoyuluşlarına şərait yaratdığını vurğulayıblar.

Sonra KOBİA və MÜSİAD arasında Birgə Yol Xəritəsi, Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və İstanbul Dövlət Özəl Sektor Tərəfdaşlığı Kamillik Mərkəzi arasında dövlət-özəl tərəfdaşlığı üzrə niyyət protokolu, Gənc Sahibkarlar Şəbəkəsi Assosiasiyası ilə "Gənc MÜSİAD" arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Forum çərçivəsində Azərbaycanın investisiya imkanlarına və dövlət-özəl sektor tərəfdaşlığına (DÖST/PPP) dair panellər təşkil olunub. Panel iclaslarında Azərbaycanın əlverişli biznes və investisiya mühiti, ölkəmizin, o cümlədən Qarabağın investisiya potensialı, DÖST layihələrinin tətbiqi, bu sahədə Türkiyə təcrübəsi, işğaldan azad edilmiş ərazilərimizdə sosial-iqtisadi infrastrukturun yenidən qurulması prosesində PPP modelinin roluna dair təqdimatlar keçirilib, yerli sahibkarlıq subyektlərinin məhsul və xidmətləri, eləcə də ölkəmizdə yerli və xarici iş adamlarına və investorlara dəstək göstərən qurumların fəaliyyəti barədə sərgi təşkil olunub.

Forum zamanı həmçinin iş adamları arasında ikitərəfli görüşlər keçiriləcək, forumda iştirak edən xarici iş adamları və investorlar bir sıra müəssisələrdə istehsal prosesi ilə tanış olacaq, yerli sahibkarlarla əməkdaşlıq imkanlarına və investisiya qoyuluşuna dair müzakirələr aparacaqlar.




# Türk dünyasının Zəfər Komandanı

**Dünya həmişə güclülərin dünyası olub!**

**Çünki güclülər öz iradələrini başqalarına qəbul etdirə, istəklərini həyata keçirə biliblər!**

**Açıq və dolayı yollarla!**

Əgər Orta əsrlərdə bu istəklər qol gücünə və qılınc vasitəsilə gerçəkləşdirilirdisə, sivil dünyada daha çox məkrli üsullardan istifadə olunur.

Gah xaç yürüşləri başlanır, gah faşistlər hakimiyyətə gələrək öz ideyalarını zorla yayırlar, gah kommunistlər "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi" adı ilə "kiçik qardaşları" istismar edərək, təbii sərvətlərini mənimsəyirlər. Bu gün isə ölkələrə "demokratiya gətirmək" üçün rəngli inqilablar törədir, şəhər və kəndləri viran qoyaraq əhalisini miqranta çevirirlər.

*Belə bəlalardan qorunmaq, milli sərvətlərinə sahib çıxıb xalqını təhlükəsiz, xoşbəxt və firavan yaşatmaq üçün güclü və ağıllı olmalısan!*

**Deyilənlərin ilkin şərti isə dövlətə müdrik, uzaqgörən, qətiyyətli və möhkəm iradəli şəxsiyyətlərin rəhbərlik etməsidir.**

**Başqa sözlə, dövlət gəmisinin sükanı güclü və etibarlı əllərdə olmalıdır!**

❖ ❖ ❖

*Müasir dünyamızda gedən məkrli və ziddiyyətli proseslər artıq hamıda belə bir möhkəm qənaət yaradıb:*

*Güclülər qarşısında duruş gətirmək, gücə qalib gəlmək üçün özün də güclü olmalısan!*

*Artıq beynəlxalq hüquqa əhəmiyyət verən, ədalət axtaran və onu təmin edən yoxdur!*

**Xoşbəxtlikdən İlham Əliyev Azərbaycanı gücləndirə bildi!**

**Tarixin ən güclü, qüdrətli Azərbaycanını yaratdı!**

**Həm də bütün parametrlər üzrə: iqtisadi, siyasi, hərbi və mənəvi cəhətdən!**

O da bir həqiqətdir ki, bütün gücün əsasında iqtisadi güc dayanır!

Çünki iqtisadi güc səni asılılıqdan, başqalarına möhtac olmaqdan qoruyur!

İqtisadi müstəqillik həm də müstəqil siyasət yürütməyə imkan yaradır!

Dövlətinin maraqlarını qorumağa, təmin etməyə əsas verir!

İqtisadi güc sənə ləyaqətli dövlətlər sırasında yer tutmağa şərait yaradır!

**Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi on səkkiz il ərzində bütün bunlara nail oldu.**

*Müstəqil Azərbaycanın və tərəfdaşlarının maraqlarını təmin edən beynəlxalq layihələrin təşəbbüsçüsü və icraçısı oldu!*

*Bu layihələr Azərbaycana təkcə pul qazandırmadı, dostlarının, haqq işini müdafiə edənlərinin də sayını artırdı!*

❖ ❖ ❖

**Prezident İlham Əliyev Azərbaycanı dünya birliyinə müasir, demokratik dövlət kimi də tanıtdırmağı bacardı.**

Hücum diplomatiyasını tətbiq etdi, beynəlxalq qurum və təşkilatlarda ardıcıl səmərəli və məqsədyönlü iş apardı!

Azərbaycan bütün bədxahlarına tutarlı cavablar verərək öz həqiqətlərini yaydı, haqlı olduğuna, təcavüzə məruz qaldığına dünyanı inandırdı!

Neft kapitalının insan kapitalına çevrilməsi təşəbbüsünü irəli sürərək yeni - savadlı, vətənpərvər və ağıllı gənc nəsil tərbiyələndirdi, onları doğru istiqamətə yönləndirdi.

*Milli Olimpiya Komitəsinin Prezidenti olaraq Azərbaycan gəncində özünəinam, dövlət bayrağına və himninə məhəbbət hissləri aşıladı, onların iştirakı ilə ən yeni silahlarla, taktika və strategiya ilə silahlanmış qüdrətli ordu yaratdı!*

**"1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq".**

**İlham ƏLİYEV**

**"Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb".**

**Rəcəb Tayyib ƏRDOĞAN**



*Elə bir ordu ki, 44 gün ərzində düşmən ordusunu məhv edərək Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi!*

❖ ❖ ❖

**Əslində, cənab İlham Əliyev Azərbaycan rəhbərliyinə gəldiyi ilk günlərdən işğal altındakı torpaqları necə azad edəcəyi barədə düşünürdü.**

**Bu yolda nə mümkündürsə, hamısını etdi!**

**Hətta mümkün olmayanları da etdi!**

*44 günlük Zəfər müharibəsində təkcə Ermənistana, dünya erməniliyinə deyil, Ermənistanın dostlarına və havadarlarına da qalib gəldi!*

Hərbi əməliyyatlar dövründə özü 3 cəbhədə - hərb meydanında, diplomatiya və informasiya müharibəsində qəhrəmanlıqla çarpışaraq hər üçünün qalibi oldu!

Buna qədər Vətən müharibəsinə böyük müdriklik və uzaqgörənliklə zəruri olan bütün hazırlıq işlərini də ən yüksək səviyyədə gördü!

Torpaqların sülh yolu ilə qaytarılması danışıqlarında prinsipiallıqla, Azərbaycan xalqının maraqlarını qətiyyətlə müdafiə edərək, diplomatiya sahəsində məharətlə, səmərəli çalışmaqla dəyişməz mövqeyini də açıq şəkildə ortaya qoydu:

- Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç zaman olmayacaqdır;
- Azərbaycan bir qarış torpağını belə güzəştə getməyəcəkdir;
- Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!

**İlham Əliyev həlledici müharibəyə iqtisadi cəhətdən, dövləti gücləndirməklə hazırlaşdı:**

- Ölkənin enerji, nəqliyyat və ərzaq təhlükəsizliyini təmin etdi;
- Ordunu ən müasir silahlarla silahlandırdı;
- Xalqın milli birliyini yaratdı;
- Möhkəm və kifayət qədər valyuta ehtiyatı gördü;
- Düşmənin səhvlərindən və bacarıqsızlığından məharətlə istifadə etdi!

❖ ❖ ❖

**İlham Əliyevin rəhbərliyi və sərkərdəliyi ilə qazanılan möhtəşəm qələbə bütövlükdə həm də türk dünyasının qələbəsidir!**

**Kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatda Zəngəzur dəhlizinin açılması, beləliklə, Türkiyə ilə Azərbaycan arasında birbaşa quru yolunun bərpası nəzərdə tutulur.**

**Və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla İlham Əliyev birlikdə yeni açılan yolun təməlini də qoydular!**

*Mahiyyətcə bu, türk dövlətlərinin qəsdən, məqsədyönlü şəkildə bir-birilərindən ayrı salınması, əlaqələrinin zəifləməsi və soyuması siyasətinə son qoyulması deməkdir!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsindəki Zəfəri ilə baş tutan bu birləşmə qələbəmizin miqyas və möhtəşəmliyini daha da artırır.**

*Bu hadisəyə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çox yüksək, həqiqi qiymətini vermişdir:*

- "Qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoyulub. Bu təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır".
- "Xəzərdən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi başda olmaqla aramızdakı bütün yolları bu coğrafiyanın əsas arteriyalarına çevirə bilərik. Azərbaycan-Naxçıvan bağlantısı da bu mənada həyati əhəmiyyət daşıyır".
- "Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir".

❖ ❖ ❖

**Azərbaycan Prezidenti cənab İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin verilməsi onun təkcə Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərinə və möhtəşəm Zəfərə görə deyil, həm də türk dövlətlərinin bir əsr əvvəl məkrli şəkildə pozulmuş coğrafi əlaqələrinin yenidən bərpasına yaratdığı real təminata görədir!**

*Bu gün Azərbaycan xalqı ilə birlikdə bütün türk dünyası da İlham Əliyevlə fəxr edir, onun gördüyü işlərin dəyərini və əzəmətini yüksək qiymətləndirir!*

İlham Əliyev əziz dostu və qardaşı Rəcəb Tayyib Ərdoğanla birlikdə türkdilli dövlətlərin birliyinin yaranması və inkişafı, üzvlərinin sayının artması sahəsində böyük işlər görmüşlər.

Bütün bunlar şuranın Türk Dövlətləri Təşkilatına çevrilməsinə, habelə əməkdaşlığın sıxlaşdırılmasına və əlaqələrin möhkəmləndirilməsinə mühüm təsir göstərmişdir.

**Zaman özü türkdilli dövlətlərin birləşməsini, əlbir və əlaqəli fəaliyyət göstərməsini tələb edir!**

**Çox şadıq ki, zamanın, dövrün bu tələbinin reallaşmasına ən böyük töhfəni türk dünyasının fəxri, Azərbaycan xalqının müdrik və uzaqgörən rəhbəri İlham Əliyev vermişdir!**

**Bəxtiyar SADIQOV**

◆ Zəfərin izi ilə






# Xilaskarın quruculuq missiyası

## İlham Əliyevin bir il öncəki Qələbə səfəri ilə Qarabağın və Şərqi Zəngəzurun yeni həyatının təməli qoyuldu

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Ermənistanın kapitulyasiyası ilə nəticələnən Vətən müharibəsinin bitməsindən cəmi 6 gün sonra - 2020-ci il noyabrın 16-da işğaldan azad edilmiş Füzuli və Cəbrayıla ilk səfəri tariximizin möhtəşən zəfərimizdən sonrakı yeni dönüş anı idi. Qalib sərkərdənin bu Qələbə səfəri hərb gücünə əldə etdiyimiz böyük zəfərin təntənəsi, işğal dövrünün bitməsinin azad edilmiş torpaqlarımızdan dünyaya bəyan olunması idi.

### Qarabağın tarixini dəyişdirən səfər

Uzun illər işğal altında qalmış kəndlərin, şəhərlərin infrastrukturunun, ekologiyasının bərpası ilə bağlı planların icra olunacağını açıqlayan dövlət başçısı Qarabağa ilk səfəri zamanı düşmənin yerlə-yeksan etdiyi tarixi torpaqlarımızda quruculuq işlərinə başlanıldığını da bəyan etdi.

Bütün Azərbaycan üçün tarixi əhəmiyyət daşıyan bu səfər çərçivəsində Prezident İlham Əliyev Füzuli, Cəbrayıl şəhərlərində, xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırmaqla yanaşı, bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparan Füzuli-Şuşa avtomobil yolunun və ya "Zəfər" yolunun da təməlini qoydu. Bu layihə işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən birinci layihə olduğu üçün onun icrasının xüsusi tarixi əhəmiyyəti var. Təxminən bir il ərzində reallaşan bu layihənin digər üstünlüyü Şuşaya getmək imkanlarının asanlaşdırılması oldu. Həmin yol çəkilənədək Şuşaya yalnız Ağdamdan getmək mümkün idi. İndi isə Şuşaya birbaşa Füzulidən də getmək olur.

Vətən müharibəsinin bitməsindən ötən müddət ərzində Prezident İlham Əliyevin birbaşa nəzarəti ilə işğaldan azad edilmiş torpaqlarımızda yalnız bərpa, yenidənqurma işləri aparılıb. Dövlət başçısının təşəbbüsü ilə yenidənqurma işlərinin yeni innovativ texnologiyalara əsaslanaraq aparılması, ərazilərdə müasir şəhərsalma planlaşdırılmasının həyata keçirilməsi, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi həmin ərazilərin çox tezliklə nəinki Qarabağın, eləcə də bütün regionunun ən müasir rayon və şəhərlərinə çevriləcəyinə təminat verir.

Prezident İlham Əliyevin Qarabağa - ötən bir il ərzində işğaldan azad edilmiş rayonlara etdiyi bütün səfərlər və bu səfər çərçivəsində rayon ictimaiyyəti ilə keçirdiyi görüşlər, təməlqoyma mərasimlərində iştirak etdiyi layihələr dağıdılmış şəhərlərimizin, kəndlərimizin qısa müddət ərzində yenidən qurulacağına, insanların öz doğma el-obasına qayıdacağına, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanacağına olan inamı daha da möhkəmləndirib. Bütün bunlara görədir ki, müharibənin bitməsindən çox az vaxtın - cəmi bir ilin keçməsinə baxmayaraq, Böyük qayıdış proqramının ilk mərhələsi artıq reallaşdırılmaq üzrədir. Azərbaycan müharibədən yeni çıxan ölkə olsa da, onun sürətlə apardığı yenidənqurma işləri sayəsində cari ilin sonuna qədər Zəngilan köçkünlərinin bir qisminin öz doğma yurd-yuvalarına geri qayıtması real olacaq.

Prezidentin Qarabağa səfərləri yalnız yeni layihələrin icrası ilə yadda qalmadı. Dövlət başçısı elə ilk səfəri zamanı Azərbaycanın necə vandal bir düşmənlə üz-üzə qaldığını, onun tarixi Azərbaycan torpaqlarında hansı vəhşiliklər törətdiyini bütün dünyaya göstərdi.

### Savaşdan sonrakı quruculuq

Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlunun sözlərinə görə, ölkə Prezidentinin 16 noyabrda işğaldan azad edilmiş ərazilərimizə ilk səfəri bir çox mənalarda böyük əhəmiyyət kəsb etdi. Azərbaycan Prezidentinin istənilən səfəri, ilk növbədə, ölkə və həm də beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənilir. Prezident bu səfəri zamanı Ermənistanın işğalçılıq siyasətinin, vandalizminin izlərini bütün dünyaya nümayiş etdirdi. Bu, beynəlxalq informasiya müstəvisində ölkəmizin mövqelərini əhəmiyyətli dərəcədə gücləndirməyə xidmət etdi. Bununla yanaşı, Prezident işğal altında olmuş ərazilərimizin yenidən qurulması ilə bağlı strategiyasını səsləndirmiş oldu.

Deputat hesab edir ki, ümumiyyətlə, Azərbaycan yalnız müharibə dövründə deyil, savaşdan sonra da unikal davranış nümayiş etdirib. 44 günlük Vətən müharibəsində əsl müasir müharibə nümunəsi nümayiş etdirən ölkəmiz postmüharibə mərhələsində də unikal davranıb. Belə ki, dünya tarixi təcrübəsindən çıxış etmiş olsaq, görərik ki, müharibə aparmış ölkələr uzun zaman iqtisadiyyatlarının bərpası ilə məşğul olurlar. Azərbaycan cəmiyyəti isə müharibənin iqtisadi təsirlərini ümumiyyətlə hiss etməyib. Bundan başqa, torpaqlarımız işğaldan azad olunan kimi ərazidə kompleks tikinti-quruculuq işlərinə başlanılıb: "Hələ müharibənin getdiyi dövrdə, yəni ötən il oktyabrın 29-da Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili" haqqında fərman imzaladı. Bu, işğaldan azad olunmuş ərazilərimizlə bağlı gələcək strategiyamız haqqında öncədən təsəvvür formalaşdırırdı. Yəni bu həm də ərazilərimizin yenidən qurulması istiqamətində artıq ilkin inzibati addımların atılmasının göstəricisi idi. Həqiqətən də, müharibə bitdikdən, təcavüzkar Ermənistanı 10 noyabr tarixində kapitulyasiya sənədini imzalamağa məcbur etdikdən dərhal sonra Azərbaycan ərazilərində genişmiqyaslı tikinti-yenidənqurma işlərinə başladı. Bu istiqamətdə ölkə Prezidenti İlham Əliyevin strateji baxışları, iradəsi və əzmi göz önündədir. 10 noyabr tarixində birgə bəyanatın imzalanmasından cəmi altı gün sonra, yəni noyabrın 16-da işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfər etməsi qeyd olunanların təsdiqidir".

E.Mirbəşiroğlu əlavə edir ki, Prezident işğaldan azad edilmiş ərazilərimizə səfərlərini sistemli olaraq davam etdirməkdədir. Ölkə rəhbəri artıq azad olunmuş bütün ərazilərimizə səfərlər edib. Prezidentin işğaldan azad edilmiş ərazilərimizə ilk səfərindən ötən bir il ərzində Qarabağın siması sürətlə dəyişib: "Artıq cəsarətlə qeyd etmək olar ki, Füzuli Qarabağın nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməkdədir. Bu ilin əvvəlində Füzulidə hava limanının inşası ilə bağlı Azərbaycan Prezidentinin qərarından cəmi 8 ay sonra işlər artıq yekunlaşmışdı. Olduqca sıx minalanmış bir ərazidə belə qısa zaman kəsiyində beynəlxalq standartlara cavab verən beynəlxalq hava limanının inşa olunması dünya təcrübəsində rast gəlinməyən haldır. İlk dəfə olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı ölkə Prezidenti İlham Əliyev Qarabağda qarşıladı. Digər tərəfdən cənab Prezidentin Şuşaya davamlı səfərləri Azərbaycanın



mədəniyyət beşiyi olan bu səhərə yeni həyat bəxş edib. Prezident tərəfindən Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edilib".

Ölkə Prezidentinin işğaldan azad edilmiş ərazilərimizə intensiv səfərləri həmin ərazilərin yenidən qurulması prosesinin daha səmərəli getməsi baxımından olduqca əhəmiyyətlidir. Belə ki, dövlət başçısının birbaşa nəzarəti altında həyata keçirilən tikinti-quruculuq işləri ərazilərin tezliklə, həm də effektiv məskunlaşdırılmasını şərtləndirəcək. Ayrıca olaraq vurğulamaq lazımdır ki, işğal altında olmuş ərazilərin böyük iqtisadi potensialının ümumi milli iqtisadi inkişaf dövriyyəsinə qatılması üçün də sürətli və keyfiyyətli quruculuq işlərinin həyata keçirilməsi zəruridir. Ölkə Prezidentinin də strateji yanaşması məhz bundan ibarətdir.

E.Mirbəşiroğlu ötən dövr ərzində - 2021-ci ilin 15 iyun tarixində Şuşa şəhərində Azərbaycanla Türkiyə arasında tarixi Şuşa Bəyannaməsinin imzalanmasını ən mühüm işlərdən biri kimi dəyərləndirir. Onun fikrincə, Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinin yeni səhifəsini şərtləndirdi. Bundan başqa, bu siyasi əhəmiyyətli sənəd təhlükəsizliyimizin təmin olunmasına da mühüm töhfə vermək gücündədir.

### Xarabalıqlardan "ağıllı şəhərə"...

Prezidentin Qarabağa ilk səfəri zamanı Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə keçirdiyi görüşdə iştirak edən AMEA-nın İqtisadiyyat İnstitutunun Postkonflikt Ərazilərin Bərpası Elmi Mərkəzininin rəhbəri, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Akif Musayev elə həmin görüşdə Prezidentin simasında bir əzmkarlıq, qətiyyət, Qarabağın yenidənqurulması ilə bağlı aydın planın olmasını gördüyünü söyləyir.

Onun sözlərinə görə, bu əzm və qətiyyəti bir il əvvəl müharibə gedən zaman da görürdük. O zaman dövlət başçısı bütün təzyiqlərə baxmayaraq, müharibədə qələbə çalmaq, sona qədər getmək əzmində idi. Bu gün isə o, azad edilmiş torpaqları yenidən bərpa etmək, dirçəltmək əzmindədir. Bunun üçün isə əvvəlcə həmin ərazilərdə təhlükəsizlik təmin edilməli idi. Son bir il ərzində bu istiqamət üzrə də mühüm işlər görülüb.

Ötən dövrdə aparılan tikinti-quruculuq işlərinə nəzər salan iqtisadçı alim qeyd edir ki, artıq Qarabağda 11 istiqamətli avtomobil yolu çəkilir, 3 hava limanı, 3 dəmiryolu tikilir, kommunikasiya stansiyaları qurulur və s. tədbirlər həyata keçirilir. Belə ki, "Zəfər" yolu azad olunmuş ərazilərdəki ən mühüm layihələrdən biri olmaqla Füzuli rayonundan Şuşa şəhərinə çəkilib və uzunluğu 101,5 kilometrdir. Bundan başqa, Əhmədbəyli-Füzuli-Şuşa, Füzuli-Ağdam, Bərdə-Ağdam, Toğanalı-Kəlbəcər-İstisu, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, Füzuli-Cəbrayıl-Zəngilan-Ağbənd, Horadiz-Zəngilan-Ağbənd dəmiryolları çəkilir, elektrik enerjisi, su təchizatı sistemləri yenidən qurulur. İşğaldan azad edilmiş Zəngilan rayonunda ilk "ağıllı kənd", "Dost Aqropark" layihələri icra edilir. Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanda yaşayış məntəqələrinin salınması ilə bağlı planlar hazırlanıb. Bundan başqa, Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini keçirib. Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının, Füzulinin Dövlətyarlı kəndində "ağıllı kənd" konsepsiyası əsasında yaradılacaq böyük yaşayış məntəqəsinin, Zəfər və İşğal muzeylərinin, Cənubi Qafqazda ilk dəfə tətbiq olunan "Rəqəmsal Stansiya İdarəetmə Mərkəzi" elektrik şəbəkəsinin təməli qoyulub.

Mərkəz rəhbəri hesab edir ki, Qarabağda hava yolunun açılması, avtomobil yolu və dəmiryollarının inşası, habelə Zəngəzur dəhlizinin açılması ilə Azərbaycan müasir infrastruktura malik nəqliyyat qovşağına çevriləcək.

Alim qeyd edir ki, bərpa və yenidənqurma işləri olduqca böyük vəsait tələb etdiyindən proses yalnız dövlət resursları ilə deyil, xarici ölkələrin, şirkətlərin qoyduğu investisiyaları dəyərləndirməklə həyata keçirilir. Bu prosesdə Türkiyə, İsrail, İtaliya, Çin və s. ölkələrin qabaqcıl şirkətlərinin iştirakını xüsusi qeyd etmək lazımdır.

### Təkcə tikinti-quruculuq işlərinə deyil, kənd təsərrüfatının canlanmasına da diqqət yetirilir

A.Musayev əlavə edir ki, işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma layihələri çərçivəsində təkcə tikinti-quruculuq işləri deyil, kənd təsərrüfatının canlanması və inkişafı məsələsinə də ciddi diqqət yetirilir. İşğaldan qabaqkı dövrdə ölkə üzrə əkin sahələrinin 7,7 faizi, üzümçülüyün 24,7 faizi, taxılçılığın 14,3 faizi, tütünçülüyün 11,6 faizi, bostançılığın 5,3 faizi, kartofun 3,3 faizi, pambıqçılığın 2,7 faizi, tərəvəzin 2,3 faizi, meyvə və giləmeyvə sahələrinin 1,8 faizi Qarabağ və ətraf rayonların payına düşürdü. Burada 1,213 milyon hektar (ha) torpaq sahəsinin yarısı - 591,776 min ha əkinə yararlı, 231,056 min ha əkin, 351,822 min ha örüş-otlaq və biçənək sahəsi, 8,898 ha həyətyanı sahədir. İşğaldan azad edilmiş ərazilərdə 2021-ci ilin məhsulu üçün payızlıq və yazlıq əkinlər daxil olmaqla, 8,9 min ha sahədə taxıl əkinləri həyata keçirilib. Azad olunmuş rayonlarda yalnız heyvandalıq üçün deyil, əlverişli təbii-iqlim şəraitinə və zəngin bitki örtüyünə malik olduğundan arıçılığın inkişafı üçün də böyük potensial var. Artıq azad edilmiş ərazilərdəki yaylaqlara ümumilikdə 4068, o cümlədən Laçın yaylaqlarına 531 arı ailəsi olmaqla 15 arıçılıq təsərrüfatı köçürülüb.

A.Musayev ölkə prezidentinin yürütdüyü düzgün iqtisadi siyasət nəticəsində sadalanan bütün imkanlardan yetərincə istifadə ediləcəyinə, ötən bir il ərzində görülən bütün işlərin səmərəli nəticə verəcəyinə də əmindir.

### Azad edilmiş ərazilər tamamilə dəyişir

Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov bildirir ki, Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə ilk səfər etməsindən ötən bir il ərzində həmin ərazilərin intensiv şəkildə bərpa və yenidənqurulması müşahidə edilir. Bir il uzun müddət olmasa da, azad edilmiş ərazilər tamamilə dəyişib və quruculuq işləri sürətlə davam edir: "Nəzərə alaq ki, Qarabağın hava qapısı artıq hazırdır. Füzuli Beynəlxalq Hava Limanı beynəlxalq reysləri qəbul etmək imkanına malikdir. Eyni zamanda azad edilmiş ərazilərdə 600 kilometrdən çox avtomobil yollarının salınması və təmiri həyata keçirilir. Həmin ərazilərdə çoxsahəli və genişmiqyaslı işlər aparılır. Digər tərəfdən, Zəngəzur dəhlizinin təməli qoyuldu".

V.Bayramov xatırladır ki, Füzuli-Horadiz-Cəbrayıl-Ağbənd avtomobil yolu, eyni zamanda Horadizlə Zəngilanı birləşdirəcək dəmiryolu xətti məhz Zəngəzur dəhlizinə inteqrasiya olunacaq. Bu isə ondan xəbər verir ki, həmin ərazilərin nəqliyyat-logistik xəritəsi tamamilə dəyişdirilir.

Deputat hesab edir ki, bu gün azad edilmiş ərazilərdə reallaşan bərpa və yenidənqurma işləri həm də gələcəkdə Azərbaycan iqtisadiyyatının inkişafı üçün bir təməldir: "Azərbaycan quruculuq işlərini davam etdirir. Bu istiqamətdə yeni layihələr, yeni planlar həyata keçirilir. İstər Şuşa şəhərində, istər digər rayon və şəhərlərdə genişmiqyaslı və intensiv işlər aparılır. Artıq Ağdam, Cəbrayıl, Füzulinin baş planları təsdiq edilib. Həmin şəhərlərin salınması, yenidənqurulması ilə bağlı işlər həyata keçirilir. Həmin ərazilərin bərpası fonunda ilin sonuna yaxın məskunlaşma prosesinin başlayacağını müşahidə edəcəyik".

V.Bayramov ilkin qiymətləndirmələrə əsasən bunu da nəzərə çatdırır ki, bərpa və yenidənqurma işlərindən sonra həmin ərazilər Azərbaycan iqtisadiyyatının 8 faizini formalaşdırmaq potensialına malik olacaq. Azad edilmiş ərazilərin iqtisadiyyatının dirçəldilməsi və onun ölkəmizin ümumi iqtisadi sisteminə reinteqrasiyası əlavə olaraq ildə 5 milyard əlavə dəyərin yaradılmasına imkan verəcək. Zəngəzur dəhlizinin açılması və Qarabağda bu gün intensiv yaradılan nəqliyyat qovşağı beynəlxalq nəqliyyat şəbəkəsinə inteqrasiya edildiyi halda bu məbləğin xeyli artacağını gözləmək olar.

V.Bayramov əmindir ki, həyata keçirilən bərpa-yenidənqurma mərhələsi həmin ərazilərin iqtisadiyyatının formalaşması, həmin ərazilərin Azərbaycan iqtisadiyyatına reinteqrasiya baxımından yeni imkanlar yaradır və çox tezliklə Qarabağa - uzun müddət işğal altında qalmış ərazilərə həyat qayıdacaq.

*Ötən bir il ərzində həm siyasi, həm də iqtisadı baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin azad edilmiş Qarabağ torpaqları ilə bağlı hədəfləri çoxdur. Bu hədəflərə nail olmaq üçün qarşıda dayanan əsas vəzifə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və burada yenidənqurma işlərinin daha sürətlə və daha geniş miqyasda aparılmasını təmin etməkdir. Prezident İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində çox qısa zamanda Qarabağın yenidən dirçələcəyinə şübhə edilə bilməz.*

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***



# Xoşməramlı missiyanın qlobal təcəssümü

## Mehriban xanım Əliyevanın timsalında Azərbaycan 75 yaşlı UNESCO-nun fəaliyyətinə mühüm töhfələr verir

Noyabrın 16-da dünya UNESCO-nun yaranma gününü qeyd edir. Bu il təşkilatın yaranmasının 75 illiyi tamam olur. Məhz 1945-ci ilin bu günündə Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) yaradılıb. Londonda keçirilən konfrans dünyanın 37 dövlətinin imzaladığı nizamnaməni qəbul edib. Onların planına görə, yeni təşkilat "bəşəriyyətin intellektual və mənəvi həmrəyliyini" təmin etməyə kömək etmək və bununla da yeni Dünya müharibəsinin başlanmasının qarşısını almaq üçün çalışmalıdır.

Azərbaycan BMT-nin bu bölməsinə 1992-ci il iyunun 3-də qoşulub. 29 ildən artıqdır ki, UNESCO ilə Azərbaycan arasında mövcud əlaqələr getdikcə genişlənir və müxtəlif fəaliyyət sahələrini əhatə edir. Azərbaycan təhsil, mədəniyyət, təbiəti mühafizə və idman sahələrində UNESCO-nun bir çox konvensiyasına qoşulub.

Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunub saxlanması ilə yanaşı, həm də dünya irsinin beynəlxalq səviyyədə müdafiə və mühafizə edilməsinə dəstək verilməsidir. Bu məqsədlə ölkəmiz müstəqillik əldə etdikdən sonra UNESCO ilə sıx əməkdaşlıq əlaqələri qurmuş, qurumun fəaliyyətinə öz töhfəsini vermişdir. 2013-cü ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Mühafizəsi üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına evsahibliyi etmiş Azərbaycan eyni uğurla, UNESCO-nun rəsmi tərəfdaşlığı ilə iki ildənbir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu keçirir. Bütün bunlar isə Azərbaycanın dünya irsi obyektlərinin beynəlxalq miqyasda qorunub saxlanması məsələsində xidmətlərinin tanınması və qiymətləndirilməsinin sübutudur.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya UNESCO-nun xoşməramlı səfiri adının verilməsi ilə Azərbaycanla bu təşkilat arasında əməkdaşlıq daha da intensivləşib. Mehriban xanım Əliyevanın rəhbərliyi və yaxından diqqəti ilə Azərbaycanda və onun hüdudlarından kənarda maddi və qeyri-maddi mədəni irsin qorunması, o cümlədən ölkəmizin mədəniyyətinin dünyada tanıdılması istiqamətində ən mühüm işlər görülür.

Bir neçə onilliklərdir ki, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) hər il mədəni, ekoloji və ya tarixi dəyərinə görə populyarlaşdırılmalı və qorunub saxlanılmalı olan təbii və ya süni obyektlərin müəyyən edildiyi toplantılar təşkil edir. UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması Komitəsinin 2009-cu ilin 28 sentyabr - 2 oktyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən 4-cü sessiyasında Heydər Əliyev Fondunun prezidentinin səyləri sayəsində strukturun yekun qərarına əsasən, Azərbaycan Aşıq Sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib. Bundan əlavə, həmin sessiyada Novruz bayramı da UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilib. Bir sıra dövlətlərdə qeyd edildiyi nəzərə alınaraq, təşkilatın tövsiyəsi ilə bu bayram beynəlmiləl qeyri-maddi mədəni irs nümunəsi kimi UNESCO-ya təqdim olunub. UNESCO-nun Ümumdünya İrs Komitəsinin 30 iyun - 10 iyul 2019-cu il tarixlərində Bakıda keçirilən 43-cü sessiyası zamanı Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi Ümumdünya İrs Siyahısına daxil edilib.

Mehriban xanım Əliyevanın mədəniyyət sahəsində fəaliyyətinin digər mühüm istiqamətlərindən biri də Azərbaycan mədəniyyətinin, elminin və incəsənətinin görkəmli şəxsiyyətlərinin beynəlxalq miqyasda tanıdılmasıdır. Belə ki, 2005-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakıda və Parisdə dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin 120 illik yubileyinə həsr olunmuş təntənəli tədbirlər keçirilib. Eyni zamanda Parisdə UNESCO çərçivəsində görkəmli kimyaçı-alim, akademik Yusif Məmmədəliyevin 100 illik yubileyi qeyd edilib, eləcə də dünya şöhrətli musiqiçi Mstislav Rostropoviç və onun həyat yoldaşı, opera ifaçısı Qalina Vişnevskayanın birgə yaradıcılıq fəaliyyətinin 50 illiyinə həsr olunmuş albom və disklər buraxılıb. 2005-ci ildə Parisdə, UNESCO-nun mənzil-qərargahında Heydər Əliyev Fondunun nəşr etdirdiyi "Qarabağ xanəndələri" musiqi albomunun təqdimat mərasimi keçirilib.

Heydər Əliyev Fondu həm də təkcə Azərbaycanda deyil, xaricdə də mədəniyyət abidələrinin qorunmasına yönəlmiş çox mühüm humanitar və mədəni layihələr həyata keçirir. 2007-ci ildə Heydər Əliyev Fondu tərəfindən Parisin Versal Sarayının parkında nümayiş etdirilən Ümumdünya İrs Siyahısına daxil edilmiş iki abidənin bərpası buna sübutdur. Parisdəki Luvr Muzeyində İslam sivilizasiyasının memarlıq, rəssamlıq və digər mədəni yaradıcılıq nümunələrinin nümayiş olunduğu yeni zalların yaradılmasında da Heydər Əliyev Fondunun mühüm rolu olmuşdur. Heydər Əliyev Fondu Fransanın Orne departamentindəki Sen-İler, Ferne-o-Sovaj, Sen-İler-La-Jerar, Tanville, Courjust, Reveyon, Mal yaşayış məntəqələrindəki X-XII əsrlərə aid yeddi kilsənin, 14-cü əsrə aid Strasburq Kafedral kilsəsinin vitraj hissələrinin bərpasına kömək edib.

Fond İtaliya və Vatikanda tarixi-mədəni yerlərin qorunması üçün də bir sıra layihələr həyata keçirib. 2016-cı ildə Heydər Əliyev Fondu tərəfindən Kapitoli Muzeyində müqəddəslər Marselino və Pietronun katakombaları, eləcə də Filosoflar Zalı bərpa edilib. Daha sonra o, Vatikanda Müqəddəs Sebastyan katakombalarının bərpasına başlayıb. İki il sonra Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bütün xristian dünyası üçün əvəzsiz mədəni-tarixi əhəmiyyətə malik katakombaların açılış mərasimində iştirak edib. Heydər Əliyev Fondu İkinci Dünya müharibəsi zamanı dağıdılmış və yandırılmış Berlin qəsrinin bərpası təşəbbüsünə qoşulub, 2011-ci il sentyabrın 29-da isə Mehriban xanım Əliyeva Berlin qəsrinin bərpası üçün ianə toplama kampaniyası çərçivəsində, Heydər Əliyev Fondunun töhfəsi olaraq 50 min avro məbləğində pul çekini Berlin qəsrinin rəhbərliyinə təqdim edib.

Bolqarıstanın mədəni-mənəvi paytaxtı olan Veliko Tarnovo şəhərində yerləşən "Trapezitsa" memarlıq-muzey qoruğunun bərpasını da qeyd etmək istərdim. Bu memarlıq incisinin və İkinci Bolqar Krallığının mənəvi mərkəzinin bərpasına Heydər Əliyev Fondu mühüm töhfə verib. Heydər Əliyev Fondu tarixi abidənin 158 metr uzunluğunda qərb divarının konservasiyası və bərpasını, 880 metr uzunluğunda turizm xiyabanının salınmasını, Mədəni İrs Mərkəzinin yaradılmasını, bu ərazidə yerləşən Orta əsrlərə aid 3 kilsənin təmiri və konservasiyasını həyata keçirib. Bolqarıstan və Şərqi Avropanın tarixi turizm mərkəzlərindən biri olan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunda konservasiya və bərpa işləri 10 ay davam edib. Bu layihə əslində fondun bütün Balkan regionunda ən böyük mədəniyyət layihəsidir. 22 sentyabr 2016-cı il tarixində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva Trapezitsa Memarlıq Muzeyi Qoruğunun açılış mərasimində iştirak ediblər. Bundan əlavə, fond təhsilə dəstək üçün çoxlu sayda sosial layihələr həyata keçirib, xüsusən Pakistan və Vyetnamda məktəblərin, Bosniya və Herseqovinada sosial mərkəzlərin tikintisi layihələrinə dəstək verib.

Uzun illərdir ki, ölkəmiz istər Azərbaycanda, istərsə də qlobal miqyasda dünya mədəni irsinin bərpasına öz töhfələrini verir və ölkəmizlə UNESCO arasında tərəfdaşlıq əlaqələri daim yüksək səviyyədə inkişaf edir.

Azərbaycanın 44 günlük qalibiyyətli müharibədə qələbəsi regionda yeni reallıqların yaranmasına gətirib çıxardı ki, bu da bəzi siyasi dairələrdə narahatlıq yaradır və bu dairələr yeni vəziyyətlə barışa bilmirlər. Bu kontekstdə UNESCO öz mandatı çərçivəsində obyektiv və qərəzsiz fəaliyyət göstərməli olan hökumətlərarası təşkilat kimi layiq olmadığı prosesə qarışıb və siyasi təzyiq vasitəsinə çevrilib. Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə dağıdılmış və talan edilmiş mədəni irsin vəziyyəti və taleyi ilə bağlı Azərbaycan dəfələrlə məsələ qaldırmış, onun mühafizəsi üçün tədbirlərin görülməsi və bu ərazilərə missiya göndərilməsi xahişi ilə dəfələrlə UNESCO-ya rəsmi müraciət etmişdir. Təəssüf ki, bu müraciətlərin heç birinə adekvat cavab verilməyib.

1996-cı ildən etibarən rəsmi Bakı Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində mədəni irsin talan edilməsi barədə UNESCO-ya məlumat vermiş, bu mədəni irsin Azərbaycana qaytarılmasını təmin etmək üçün tədbirlər görülməsini xahiş etmişdir.

2005-ci ildə UNESCO-nun 1995-2004-cü illər üçün "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasının həyata keçirilməsi istiqamətində fəaliyyətə dair hesabatında Azərbaycanın vəziyyətlə bağlı UNESCO Katibliyinə məlumat verdiyi açıq-aydın göstərilib. Hesabatda Ermənistan tərəfindən bu ərazilərdə 927 kitabxananın, 60-dan çox məscidin, 44 məbədin, 473 tarixi abidənin, saray və muzeyin dağıdılması, habelə qeyri-qanuni ixrac və 40 min muzey eksponatı, nadir sənət inciləri, əlyazmalar, miniatürlər, qiymətli Qarabağ xalçaları, xatirə əşyaları, tarixi bəzək əşyaları, arxeoloji nümunələrin xaricə satışı barədə məlumatlar öz əksini tapıb. Bu hərəkətlər mədəni sərvətlərin qeyri-qanuni idxalı, ixracı və ötürülməsinin qadağan edilməsi və qarşısının alınması haqqında 1970-ci il tarixli UNESCO Konvensiyasına açıq şəkildə ziddir və onu pozur. Təşkilat 2020-ci ildən etibarən 14 noyabr tarixini Mədəni Əmlakın Qeyri-qanuni Ticarətinə Qarşı Beynəlxalq Mübarizə Günü elan edib, lakin buna baxmayaraq, biz bu qurumun işinin nəticəsini görmürük.

2007-ci ildə "Azərbaycana qarşı müharibə - mədəni irsə hücum" kitabı hazırlanaraq UNESCO-ya təqdim edilib. Burada ölkəmizin işğal olunmuş ərazilərində Ermənistan tərəfindən dağıdılmış mədəniyyət və dini abidələrin siyahısı, onların qəsdən erməniləşdirilməsi, alban kilsələrinin erməni kimi təqdim edilməsi barədə ətraflı məlumatlar yer alıb. UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuura Bakıya səfəri zamanı Azərbaycan tərəfinə belə bir missiyanın təşkilini təklif edib. Baş direktor daha sonra məsələnin izlənildiyini və missiyanın dəqiq vaxtını deyə bilməyəcəyini qeyd edib. 2016-cı ildə "Multikulturalizm ili" çərçivəsində UNESCO-nun mənzilqərargahında konfrans iştirakçılarının geniş auditoriyası qarşısında "Multikulturalizmin əhəmiyyəti və uğurlu Azərbaycan modeli" adlı konfransda çıxış edərək ölkəmizin işğal olunmuş ərazilərində maddi, mədəni və dini irsin məhv edilməsi faktları barədə ətraflı məlumat verib.

Həmin konfransda Ermənistan tərəfindən Ağdam Cümə məscidindən hərbi məqsədlər üçün istifadə edilməsi barədə məlumatın daxil olduğunu, bununla da beynəlxalq hüququn, o cümlədən Silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında 1954-cü il Haaqa Konvensiyasının kobud şəkildə pozulduğunu qeyd edib.

2018-ci ilin yanvarında o, təşkilatın işğal olunmuş ərazilərə missiyasının UNESCO-ya və konkret olaraq xanım Odri Azulaya göndərilməsi məsələsini qaldırıb. Xanım Azula cavab verib ki, UNESCO humanitar təşkilatdır və ona görə də siyasi məsələlərə qarışmır. Göründüyü kimi, bütün bu müddət ərzində beynəlxalq ictimaiyyət, o cümlədən UNESCO Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindəki qanunsuz əməlləri barədə mütəmadi olaraq məlumatlandırılıb və UNESCO-nu mədəni irsin qorunması məsələlərinin siyasiləşdirilməsinə yol verməyərək öz missiyasını müstəqil və obyektiv yerinə yetirməyə çağırıb. Təəssüflər olsun ki, bu beynəlxalq təşkilatın funksionerləri kəskin məsələlərə münasibət bildirməməyi üstün tutublar.

2020-ci ildə rəşadətli Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi. Nəticədə bütün dünya Ermənistanın mədəni irsimizə qarşı törətdiyi vəhşiliklərin bir daha şahidi oldu. 44 günlük müharibənin başa çatması ilə işğaldan azad edilmiş ərazilərə onlarca xarici və yerli KİV nümayəndələri, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələri, müxtəlif ölkələrdən gəlmiş alimlər baş çəkiblər - hamısı kütləvi dağıntıların şahidi olublar. Həmin ərazilərdə öz gözləri ilə gördüklərini internetdə, mətbuatda yayıblar. Nüfuzlu beynəlxalq sərgilərdə Qarabağ müharibəsinin nəticələrini, Azərbaycanın şəhər və kəndlərinin erməni işğalçıları tərəfindən işğalı zamanı dağıdıcılığı əks etdirən fotoşəkillər nümayiş etdirilir. Dünya baş verən hadisələrin həqiqətini anlamağa başlayır.

Biz UNESCO-dan məsələni siyasiləşdirmədən ədalətli və qərəzsiz mövqe gözləyirik, yalnız bir məqsədlə onun mandatını, sağlam düşüncəsini, dialoq ruhunu, xoşməramlılığını və gələcək nəsillər qarşısında məsuliyyət hissini rəhbər tutaraq, Qarabağdakı tarixi, mədəni və dini abidələrimizə hüquqi qiymət verməsini gözləyirik. Arzu edirik ki, belə bir şey dünyanın heç bir yerində olmasın və bir daha təkrarlanmasın!

***Aytən QƏHRƏMAN,***
***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin müşaviri, filologiya elmləri doktoru***

# Zəfər büdcəsi

## Milli Məclis müstəqillik tariximizin ən böyük maliyyə sənədini müzakirəyə çıxarır

Noyabrın 15-də 2022-ci ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılıb. Müzakirələr noyabrın 18-dək davam edəcək.

44 günlük Vətən müharibəsinin qalib dövlətinin 2022-ci il üçün hazırlanan iqtisadi konstitusiyasını zəfər büdcəsi də adlandıra bilərik. Çünki bu, 30 il əvvəl müstəqilliyini bərpa etmiş bir ölkənin müstəqillik tarixinin ən böyük büdcəsidir.

Əgər Vətən müharibəsi Azərbaycanın hərbi gücünün təntənəsi oldusa, gələn ilin büdcəsi isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirən reallıqdır.

### Regionda ən güclü iqtisadi potensiala malik olan ölkə

Bu bir həqiqətdir ki, Azərbaycan son 18 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılması bunu təsdiq edən ən vacib faktlardır.

Dünən Bakıda keçirilən XXV Beynəlxalq Biznes-Forumda İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib ki, ölkənin strateji valyuta ehtiyatları 108 milyard manata (63,5 milyard dollar) çatacaq ki, bu da xarici dövlət borcundan bir neçə dəfə çoxdur.

Göründüyü kimi, iqtisadi baxımdan özünü tamamilə təmin edən və ciddi maliyyə çətinliyi olmayan Azərbaycan 2021-ci ili də uğurla başa vurmaqdadır. İl ərzində həyata keçirilən məqsədyönlü islahatlar nəticəsində sosial-iqtisadi inkişafın dayanıqlığı təmin olunub. İnkişaf səviyyəsini xarakterizə edən bütün əsas göstəricilərin əhəmiyyətli dərəcədə yaxşılaşması Azərbaycanın regionda ən güclü iqtisadi potensiala malik olan ölkəyə çevrildiyini sübut edir.

Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə edilən uğurlar onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı 2022-ci ildə də inkişaf dinamikasını qoruyub saxlayacaq və iqtisadi artımın müsbət meyilləri davam edəcək.

2022-ci il üçün dövlət büdcəsinin gəlirləri (26 milyard 407 milyon manat və ya 15 milyard 533 milyon 500 min dollar) ölkəmizin reallıqları əsas götürülməklə proqnozlaşdırılıb. Xərclərin (29 milyard 879 milyon manat və ya 17 milyard 575 milyon 900 min dollar) istiqaməti isə Azərbaycanda ardıcıllıqla həyata keçirilən siyasətin prioritetləri nəzərə alınmaqla müəyyənləşdirilib. Belə ki, 2022-ci il üzrə dövlət büdcəsinin əsas xərc istiqamətləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində qeyd olunan Milli Prioritetlər və onların həyata keçirilməsi üçün qarşıya qoyulmuş strateji məqsədlər, eləcə də mövcud makro-fiksal çağırışlar nəzərə alınmaqla müəyyən edilib. 2022-ci ilin dövlət büdcəsi xərcləri dövlətin əsas funksiyalarının təmin edilməsinə, o cümlədən müdafiə və təhlükəsizlik, sosial təminat, səhiyyə, təhsil və dövlət borcuna xidmətlə bağlı xərclərin maliyyələşdirilməsinə, eləcə də iqtisadi artımın davamlılığının dəstəklənməsinə yönəldiləcək.

### Müdafiə xərcləri 5 milyard manata yaxın yüksəlir

Tarixi qələbəmizin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, dövlətin milli təhlükəsizliyinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin yerləşdirilməsi, bərpa edilmiş dövlət sərhədinin etibarlı qorunması üzrə tədbirlərin maliyyələşdirilməsi növbəti ilin büdcəsinin prioritet xərclərinin vacib istiqamətləri kimi qalacaq.

Belə ki, gələn ilin dövlət büdcəsi xərclərinin 15 faizi, yəni 4 milyard 490 milyon manat həcmində vəsait bu məqsədlər üçün nəzərdə tutulub.

Gələn ilin büdcəsinin prioritet xərclərində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ön sırada dayanır. Düşmənin vəhşicəsinə talan etdiyi kənd, qəsəbə və şəhərlərin yenidən qurulması və tarixi simalarının qaytarılması, ərazilərin minalardan təmizlənməsi, zəruri yol-nəqliyyat, elektrik, rabitə, su, qaz və digər kommunal infrastrukturların, həmçinin sosial-mədəni obyektlərin tikintisi, mədəni-tarixi abidələrin bərpası istiqamətində başlanılmış böyük həcmli işlər sürətlə davan etdirilməkdədir. Növbəti ildə də işğaldan azad olunmuş ərazilərin bərpası məqsədi üçün 2,2 milyard manat vəsait ayrılması nəzərdə tutulur.

### Ənənəvi olaraq sosialyönümlü büdcə

Digər prioritet xərc istiqaməti xalqın rifahının yaxşılaşdırılması və sosial müdafiənin təmin edilməsi xərcləridir. Yəni dövlət büdcəmiz ənənəvi olaraq sosialyönümlü büdcədir. Büdcənin sosial xərcləri 46,4 faizə çatdırılıb və cari illə müqayisədə 13,5 faiz, yəni 1 milyard 650 milyon manat artırılaraq 13 milyard 851 milyon manata çatdırılıb.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq 2022-ci ilin dövlət büdcəsində gələn il yanvarın 1-dən əməkhaqların, əmək pensiyalarının, sosial müavinətlərin və digər sosial ödənişlərin artırılması üçün 1 milyard 440 milyon manat məbləğində müvafiq maliyyə təminatı yaradılıb.

Prezident tərəfindən təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq növbəti 5 il üçün sosial-iqtisadi inkişaf strategiyası hazırlanıb. Həmin inkişaf prioritetlərində təhsil sahəsi xüsusi prioritet kimi qeyd olunur. Ümumilikdə, büdcədə elm xərcləri cari illə müqayisədə 20 milyon manat çox olmaqla 203 milyon manat nəzərdə tutulub.

Növbəti ilin büdcəsində səhiyyəyə ayrılan vəsait yenə prioritet xərc istiqaməti kimi qalır. Bu sahəyə gələn il ayrılacaq məbləğ 1 milyard 789 milyon manat (cari ilə nisbətən 119 milyon manat çox) təşkil edəcək. Bunun da əsas hissəsi icbari tibbi sığorta ilə bağlı dövlətin öhdəliklərinin yerinə yetirilməsinə sərf olunacaq.

### Azərbaycanın 2022-ci il dövlət büdcəsi Ermənistanın büdcəsindən 4 dəfə çoxdur

Ermənistanın da gələn il üçün müəyyənləşdirdiyi dövlət büdcəsi açıqlanıb. Göstəricilərə, proqnozlara nəzər saldıqda bir daha aydın olur ki, hər zamankı kimi, regionda ən aşağı büdcə Ermənistana məxsusdur.

2022-ci il üçün məğlub ölkənin büdcə gəlirləri 3 milyard 880 milyon dollara bərabərdir. Bu isə o deməkdir ki, məğlub ölkənin büdcəsi Azərbaycanın əsas maliyyə qanunundan (15,6 milyard dollar) 4 dəfə azdır.

Maraq doğuran məqamlardan biri də müdafiə və milli təhlükəsizlik xərcləri ilə bağlıdır. Belə ki, Ermənistanın gələn il üçün nəzərdə tutduğu müdafiə xarcləri 687 milyon 969 min dollardır. Azərbaycanın bu sahəyə ayrıdığı vəsait isə (4 milyard 990 milyon manat) 2 milyard 935 milyon 290 min dollardır. Burada da 4 dəfə aşağı göstərici aydın görünür.

Bütün hallarda aparılan müqayisələr o qənaətə gəlməyə əsas verir ki, Vətən savaşında Azərbaycan qarşısında diz çökən Ermənistan bu gün istənilən sahələrdə Azərbaycanla ayaqlaşmaq gücündə deyil və heç bir zaman da olmayacaq.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İşğaldan azad olunmuş ərazilərin enerji infrastrukturu bərpa olunur




Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm qələbədən sonra azad olunan Qarabağ torpaqlarında geniş tikinti-quruculuq işləri aparılır. Düşmənin 30 il taladığı doğma yurd yerlərimiz sürətlə yenidən qurulur, mühüm infrastruktur layihələri icra olunur.

Bir vaxtlar zülmət içində olan Qarabağımızda indi işıqlar yanır. "Azərenerji" ASC qısa vaxtda işğaldan azad olunan torpaqlarda mühüm infrastruktur yaradıb. Belə ki, 2021-ci ildə Qarabağ və Şərqi Zəngəzurda 3 elektrik stansiyası - 8 MVt-lıq "Güləbird" SES (Laçın), 4,8 MVt-lıq "Suqovuşan-1" və 3 MVt-lıq "Suqovuşan-2" KSES-lər yenidən qurulub, 4,4 MVT-lıq "Kəlbəcər-1" KSES-də yenidənqurma işləri tamamlanmaq üzrədir.

Bundan başqa, 110/35/10 kV-luq 9 rəqəmsal yarımstansiya - "Şuşa", "Füzuli", "Kəlbəcər", "Cəbrayıl", "Zəngilan", "Qubadlı", "Ağdam-1", "Ağdam-2" tikilib və "Şükürbəyli" yarımstansiyası genişləndirilərək tam yenidən qurulub. "Şükürbəyli" yarımstansiyasından iki istiqamətdə - Şuşaya 75, Zəngilana 110 kilometr, Daşkəsəndən Kəlbəcərə 70 kilometr, Xındırıstandan Ağdama isə 35 kilometr məsafədə ikidövrəli olmaqla, 110 kV-luq ötürmə xətti çəkilib.

Yaxın perspektivdə Laçında və digər ərazilərdə 110 kV-luq yarımstansiyaların və əlaqələndirici xətlərin çəkilməsi və Qarabağın dairəvi elektrik təchizat sxeminin gerçəkləşdirilməsi nəzərdə tutulub.

Gələcəkdə Cəbrayıla Ağcabədidən 130 kilometr, İmişlidən isə 132 kilometr məsafədə 330 kV-luq xətt çəkilməsi, o cümlədən Cəbrayılda və Naxçıvanda 330 kV-luq yeni yarımstansiyanın tikilməsi planlaşdırılıb. Bunun icrası nəticəsində Xudafərin və Qız qalası layihələri ilə yanaşı, Naxçıvanın ölkənin ümumi enerji sistemi ilə əlaqələndirilməsi də təmin ediləcək.

# Azərbaycanın müdafiə sənayesi naziri “Dubai EXPO-2020” sərgisini ziyarət edib



“Dubai Airshow-2021” 17-ci aviasiya sərgisində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev rəhbərlik etdiyi nümayəndə heyəti ilə birlikdə “Dubai EXPO-2020” beynəlxalq sərgisini də ziyarət edib.

Azərbaycanın Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, bu il oktyabrın 1-də start götürən və 2022-ci il martın 31-dək davam edəcək “Dubai EXPO-2020” ümumdünya sərgisində Azərbaycan milli pavilyonu “Gələcəyin toxumları” mövzusu ilə təmsil olunur.

Heydər Əliyev Mərkəzinin təşkil etdiyi Azərbaycan milli pavilyonunda ziyarətçilərə Azərbaycanın mədəni irsi, tarixi barədə ətraflı məlumat verilir. Eyni zamanda əzəli Azərbaycan torpağı olan Qarabağın tarixi, mədəniyyəti və qədim Şuşa şəhəri haqqında məlumat ziyarətçilərə çatdırılır. Azərbaycanın milli pavilyonunu ziyarət edən nazir Mədət Quliyev daha sonra qardaş Türkiyənin və digər dövlətlərin pavilyonları ilə də tanış olub.

# Bakıda Azərbaycanın və Almaniyanın hərbi hüquq ekspertləri arasında görüş keçirilib



Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal Müdafiə Nazirliyi arasında imzalanmış illik hərbi əməkdaşlıq planına əsasən noyabrın 15-də Bakıda iki ölkənin hərbi hüquq üzrə ekspertlərinin görüşü keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hərbi hüquq üzrə ekspert görüşündə hərbi qanunvericiliyə dair qarşılıqlı təcrübə mübadiləsi keçirilib, inzibati icraatın və xidməti araşdırmaların aparılması, hərbi hüquqşünasların xidməti fəaliyyəti sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və bir sıra digər məsələlər müzakirə olunub.

# Vahid əlaqələndirmə mərkəzlərinə 3250 şəhid ailəsi üzvü və qazi müraciət edib

Prezident İlham Əliyevin 2021-ci il iyunun 25-də imzaladığı Fərmana əsasən yaradılan vahid əlaqələndirmə mərkəzlərinə indiyədək şəhidlərimizin ailə üzvləri, müharibə əlilləri və Vətən müharibəsində xəsarət almış hərbi qulluqçulardan ibarət 3250 şəxs (o cümlədən 142 Çağrı mərkəzi vasitəsilə 238 şəxs) müraciət edib.




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Bakı şəhərində və Abşeron rayonundakı DOST mərkəzlərində fəaliyyət göstərən vahid əlaqələndirmə mərkəzlərdə həmin kateqoriyalara aid vətəndaşlara əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə və s. sahələr üzrə 21 dövlət orqanı (6 mərkəzi, 15 yerli icra hakimiyyəti orqanı) tərəfindən 26 istiqamətdə xidmətlər “bir pəncərə”dən, operativ, şəffaf şəkildə, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilir.

Mərkəzlərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 999 müraciət, Müdafiə Nazirliyi üzrə 1335 müraciət, Səhiyyə Nazirliyi üzrə 67 müraciət, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə 153 müraciət, yerli icra hakimiyyəti orqanları üzrə 190 müraciət, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi üzrə 66 müraciət, Dövlət Sığorta Kommersiya Şirkəti üzrə 206 müraciət, 142 Çağrı mərkəzi vasitəsilə 238 müraciət daxil olub.

# Mediasiya Şurası mediatorların ictimai qiymətləndirilməsinə başlayıb

Mediasiya Şurası mediatorların davamlı olaraq ictimai qiymətləndirilməsini həyata keçirməyə başlayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov məlumat verib.

O bildirib ki, vətəndaş məmnunluğunu təmin etmək, eyni zamanda mediator peşəsinin keyfiyyətini artırmaq, intizam icraatında vətəndaş iştirakçılığını və ictimai iştirakçılığı təmin etmək məqsədilə bu gündən davamlı olaraq mediatorların fəaliyyətinin elektron qiymətləndirilməsi həyata keçiriləcək.

“Mediasiya Şurası vasitəsilə mediatora müraciət edən hər bir vətəndaş, hüquqi və fiziki şəxslər qeyd edilən sorğuda iştirak edə və xidmət aldıqları mediatorların fəaliyyətini şəffaf şəkildə qiymətləndirə bilər. Sorğuda iştirak edən vətəndaşların, hüquqi və fiziki şəxslərin və eyni zamanda fəaliyyəti qiymətləndirilən mediatorların fəaliyyətlərinin qiymətləndirilməsi ilə bağlı məlumatların məxfiliyinin qorunmasına zəmanət verirk”, - deyə N.Adilov qeyd edib.

Sədr vurğulayıb ki, mediatorların qiymətləndirilməsində əsas məqsəd kəmiyyətdən keyfiyyətə keçidi təmin etməklə istər Mediasiya Şurası, istərsə də mediatorların ölkəmizdə aparılan mütərəqqi məhkəmə-hüquq islahatlarına həmahəng olaraq özünü doğrultmaları, mediasiya alətlərini qanunvericiliyin tələblərinə uyğun olaraq bütünlüklə tətbiq edilməsi istiqamətində fəaliyyəti gücləndirməkdir.

N.Adilov deyib: “İnanırıq ki, apardığımız sorğular mövcud problemlərin təhlili, onların qısa zamanda həlli, vətəndaş məmnunluğunun təmin edilməsi və mediasiya islahatlarında qarşıya qoyulan hədəflərə çatmaqda mühüm rol oynayacaq. Bu eyni zamanda mediatorların peşə hazırlığının gücləndirilməsinə də dəstək olacaq. Hədəflərə çatmaq üçün mediatorların fəaliyyətinin ölçülə bilən meyarlarla vətəndaşlar tərəfindən qiymətləndirilməsi Mediasiya Şurası üçün çox mühüm əhəmiyyətə malikdir”.

N.Adilov həmçinin qeyd edib ki, mediasiya xidmətlərinin əlçatan və daha rahat olması, şəffaflığın ən yüksək səviyyədə təmin edilməsi üçün yaxın zamanlarda vətəndaş və mediatorlar arasında təmasın elektron sistem üzərindən tətbiqi nəzərdə tutulur.

Sədr sonda hər kəsi sorğularda aktiv iştiraka dəvət edib.

Sorğuda iştirak etmək üçün link:
**http://mediasiya.gov.az/faydali/sorgular**

# *Sergey VORONİN:* “Prezident İlham Əliyev xalqını müharibəyə deyil, Qələbəyə hazırlayıb”

Azərbaycan Prezidenti İlham Əliyev ölkəyə rəhbərliyi dövründə Azərbaycan xalqını müharibəyə deyil, Qələbəyə hazırlayıb və bu, daha çox ölkəsinin Silahlı Qüvvələrində apardığı fundamental islahatlara aiddir. Xüsusi təyinatlılardan təşkil edilən 300 nəfərlik qrupların qayalardan qalxaraq Şuşa şəhərinin azad edilməsi üçün döyüşlərə qatılması və bunu heyrətamiz qələbə ilə başa çatdırması bu gün dünyanın ən təcrübəli hərbi ekspertlərini heyrətləndirən müharibə elementidir. Bu, daha çox onunla izah edilir ki, hər bir qələbə əvvəlcə şüurda həkk olunandan sonra hərbi əməliyyatlarda reallaşmalıdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Dövlət Dumasının Liberal Demokratik Partiyasından deputatı Sergey Voronin Şuşa səfərindən sonra kütləvi informasiya vasitələrinin nümayəndələri üçün təşkil olunan mətbuat konfransında səsləndirib. Rusiyalı deputat Şuşada gördükləri quruculuq işlərinin miqyasından heyrətlərini bildirməklə, qısa müddət ərzində Füzuli aeroportunun tikilərək istifadəyə verilməsini, Şuşaya aparan “Zəfər” yolunun bir ildən az müddətdə başa çatdırılmasını Azərbaycanında mövcud siyasi iradə və iqtisadi potensialla izah edərək deyib: “Şuşa səfərimizdən gəldiyim ikinci qənaət ondan ibarətdir ki, Qarabağın taleyi həll olunub və münaqişənin ikinci tərəfi olan qüvvə bu geosiyasi reallığı nə qədər tez dərk və qəbul etsə, gələcəyini bir o



qədər sığortalaya bilər. Bu isə sərhədlərin demarkasiyası və delimitasiyasından keçir”.

Şuşaya getdikləri gün erməni terrorçunun törətdiyi terror aktı barədə danışan Sergey Voronin fikrini bu cür davam etdirib: “Bu hadisə nümayəndə heyətinin Şuşaya çatmasından bir saat sonra baş verdi. Terror aktından sonra Ermənistan tərəfindən belə fikirlər səslənirdi ki, bu, ədalətin bərpasına yönələn addımlardan biridir. Bununla ona görə razılaşmaq mümkün deyil ki, terror mahiyyətinə görə heç vaxt ədalətin yanında olmayıb”.

Terror aktının törədilməsi üçün vaxtın seçilməsini təsadüfi hesab etməyən rusiyalı siyasətçi fikrini belə əsaslandırıb: “Onu qeyd etməyi lazım bilirik ki, oxşar hadisələrdə təsadüflər olmur. Bu cür “təsadüfi” əməllər hazırlayıb həyata keçirənlər isə bilməlidirlər ki, onlar öz xalqlarını düzgün istiqamətləndirmirlər. Yol birdir, elan olunmuş yol xəritəsi üzrə sülh müqaviləsi imzalanmalıdır və bu, regionda yeni perspektivlər aça bilər”.

# *Rusiyalı politoloqlar:* “Cənubi Qafqaz bir ildir yeni reallıqlar mühitində yaşayır”

Cənubi Qafqaz bir ildir yeni reallıqlar mühitində yaşayır. Bu reallıqların regiona dayanıqlı sülhlə bərabər, dinamik iqtisadi inkişaf gətirəcəyinə böyük inam var. Şuşada müşahidə etdiklərimiz onu deməyə imkan verir ki, Azərbaycan bölgədə sülh yaratmaqla bərabər, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərini uğurla aparır.




AZƏRTAC xəbər verir ki, bu fikirləri Şuşaya səfərlərinin təəssüratları ilə bağlı keçirilən mətbuat konfransında Rusiya Federasiyasından olan politoloqlar səsləndiriblər.

Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov, “Milli müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko, Rusiya Federasiyasının Əməkdar həkimi, Rusiya Federasiya Şurası Sədrinin keçmiş müavini və LDPR-dən Dövlət Dumasının deputatı, parlamentin Müdafiə və digər məsələlər komitəsi sədrinin birinci müavini Aleksey Juravlyovdan ibarət nümayəndə heyəti iki gün ərzində Şuşa şəhərinə səfər edib, Azərbaycanın qədim mədəniyyət mərkəzində, 29 ilə yaxın erməni işğalında qalan bu şəhərdə gedən quruculuq işləri ilə tanış olublar.

Mətbuat konfransını açan Sergey Markov Qarabağa səfərin məqsədinin Şuşada keçirilən beynəlxalq konfransda iştirak etməklə bərabər, burada postkonflikt vəziyyətlə yaxından tanış olmaq olduğunu bildirib. Nümayəndə heyətinin Şuşada olduğu gün erməni tərəfin törətdiyi təxribatın şahidi olduğunu deyən Sergey Markov terrora dəstək verən qüvvələrin regionda sülh yaranmasında maraqlı olmadığını diqqətə çatdırıb. Bu cür aktların Laçın dəhlizinin bağlanmasına gətirib çıxara biləcəyini deyən S.Markov belə olacağı təqdirdə, məsuliyyətin qarşı tərəfin daşıyacağına şübhə etmədiyini vurğulayıb. Dünyanın İlham Əliyevin siyasi müdrikliyinə inandığını bildirən politoloq XXI əsrin müharibəsindən qalib çıxan Silahlı Qüvvələrin Ali Baş Komandanının sərkərdəlik keyfiyyətlərinin yüksək qiymətləndirildiyini bildirib.

# *İqor KOROTÇENKO:* “Şuşa yaxınlığında törədilən terror aktı beynəlxalq terrorizmin bir halqasıdır”

“Noyabrın 13-də Şuşa yaxınlığında törədilən terror aktı beynəlxalq terrorizmin bir halqasıdır. Ermənistan vətəndaşının şəxsində törədilən bu terror aktına görə Ermənistanın hakimiyyət orqanlarının məsuliyyət daşıdığı birmənalıdır”.



AZƏRTAC xəbər verir ki, bunu Rusiyanın “Milli müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko Şuşa səfərinin nəticələri ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

Korotçenko qeyd edib ki, terror aktını törədən şəxsin əməllərinə hüquqi qiymətin verilməsi üçün onun Azərbaycan və ya Rusiya istintaq orqanlarına təhvil verilməsi zəruridir. Bu addım Ermənistan hakimiyyətinin bölgədə dayanıqlı sülhün yaranması istəyinin ifadəsi ola bilər.

# *Leyla ABDULLAYEVA:* “Mövcud gərginliyə görə başlıca məsuliyyət bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Təhlükəsizlik Şurasının iclasında baş nazir Nikol Paşinyanın söylədiklərini şərh edib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Leyla Abdullayeva deyib: “İlk növbədə, qeyd etmək istərdik ki, son zamanlar Ermənistanın həyata keçirdiyi təxribatlara cavab olaraq Azərbaycan tərəfindən müvafiq tədbirlər görülür. Belə ki, noyabrın 9-da Ermənistan silahlı qüvvələrinin 60-a yaxın hərbçisinin Laçın rayonunun Qaragöl istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aparan yol üzərində cəmləşməsi, noyabrın 13-də Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonundakı Azərbaycan Ordusunun mövqelərini atəşə tutması, habelə noyabrın 14-də Ermənistan silahlı qüvvələrinin iki dövlətin sərhədinin Laçın rayonu istiqamətində cəmlənərək növbəti təxribata hazırlığına cavab olaraq Azərbaycan tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Vurğulayırıq ki, Azərbaycan hərbçiləri ölkəmizin suveren ərazilərində xidməti vəzifələrini yerinə yetirirlər.

Həmçinin xatırladırıq ki, mövcud gərginliyə görə başlıca məsuliyyət bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”.

# COVID-19 və vaksinasiya ilə bağlı son vəziyyət







# Ağdam rayon sakininin minaya düşərək ölməsi ilə bağlı cinayət işi başlanıb

Noyabrın 15-də saat 17 radələrində 1980-ci il təvəllüdlü Ağayev Zaur İsa oğlunun Ağdam rayonunun işğaldan azad edilmiş Tağıbəyli kəndi ərazisində piyada əleyhinə minaya düşməsi barədə rayon prokurorluğuna məlumat verilib.

Ağdam Rayon Prokurorluğundan AZƏRTAC-a bildiriblər ki, aparılmış araşdırmalarla Zaur Ağayevin kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olarkən həmin ərazidə minaya düşməsi nəticəsində öldüyü müəyyən olunub.

Faktla bağlı Ağdam Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə istintaq davam edir.

# “Yüksəliş” müsabiqəsinin qalib və finalçıları Qarabağın dirçəlişi və tərəqqisi ilə bağlı fikirlərini bölüşüblər

Qarabağ Dirçəliş Fondu işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində aparılan işlərdə “Yüksəliş” müsabiqəsinin finalçılarının potensialından yararlanmaq, Qarabağın inkişafına, tərəqqisinə töhfə verə biləcək təklifləri və mühüm təşəbbüsləri dəyərləndirmək məqsədilə fikir mübadiləsi görüşü keçirib.



QDF-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, gənclər və idman nazirinin müavini, “Yüksəliş” İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev, müsabiqənin qalib və finalçıları iştirak ediblər.

Tədbir iştirakçılarını salamlayan Rəhman Hacıyev Qarabağ Dirçəliş Fondunun (QDF) yaradılması, əsas məqsəd və vəzifələri, missiyası, dəyərləri və Fondun Müşahidə Şurası tərəfindən təsdiqlənmiş strategiyaya uyğun olaraq həyata keçirilən fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. O, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qazandığı Qələbədən sonra yaranan yeni reallıqlardan bəhs edib.

R.Hacıyev 30 ilə yaxın Ermənistanın işğalı altında olan Qarabağın dirçəlişi, yüksək rifaha malik regiona çevrilməsi üçün keyfiyyətli insan gücünün təminatının, müasir idarəetmə sisteminin tətbiqinin olduqca böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Tədbir zamanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə ərsəyə gələn “Karabakh.Center” layihəsinin materialları əsasında hazırlanan, dağıdılmış binaları, yerləyeksan edilən tarixi abidələri əks etdirən “Qarabağda Urbisid” videoçarxı nümayiş etdirilib.

Sonra gənclər və idman nazirinin müavini, “Yüksəliş” İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev milli kadr ehtiyatının zənginləşdirilməsi və formalaşdırılması üçün mühüm layihə olan “Yüksəliş” müsabiqəsinin məqsəd və vəzifələri, eləcə də gələcək planları barədə məlumat verib.

F.Hacıyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması prosesində təqdim olunan layihələrin əhəmiyyətli rol oynaya biləcəyini diqqətə çatdırıb. O, Qarabağ Dirçəliş Fondu ilə sözügedən sahələrdə birgə fəaliyyəti yüksək qiymətləndirdiyini və mövcud əməkdaşlığın gələcəkdə əlaqələrin daha da inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verdiyini bildirib.

Görüşdə müsabiqə iştirakçıları tərəfindən Qarabağ bölgəsinin sürətli bərpasına töhfə vermək məqsədilə informasiya texnologiyaları, təhsil, qida sənayesi, kənd təsərrüfatı, energetika və ekologiya məsələlərini əhatə edən ümumilikdə 15 layihə təqdim olunub.

Qeyd edək ki, “Yüksəliş” müsabiqəsinin qalib və finalçıları tərəfindən təqdim olunan layihələr qiymətləndirilməsi məqsədilə müvafiq dövlət qurumlarına təqdim ediləcək.

Eyni zamanda fond özünün nizamnamə ilə müəyyən edilmiş məqsədlərinə uyğun gələn layihələrin reallaşdırılmasının mümkünlüyünü dəyərləndirəcək.

Görüşün sonunda fikir mübadiləsi sessiyası keçirilib.

# Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş beynəlxalq konfrans keçirilmişdir

Azərbaycan dünyanın mədəni xəzinəsinə öz töhfəsini vermiş nadir ölkələrdəndir. Bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış görkəmli şəxsiyyətlərdən olan Nizami Gəncəvi bu xəzinənin ən qiymətli incilərindəndir.









Odur ki, dahi sənətkarın nəinki xalqımızın, eləcə də dünya mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri öyrənilməkdədir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev şairin 880 illiyi ilə əlaqədar 2021-ci ili "Nizami Gəncəvi ili" elan edərək müvafiq sərəncam imzalamışdır. Bu sərəncam Azərbaycan ədəbiyyatına və mədəni irsinə göstərilən yüksək diqqətin nəticəsidir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə Dövlət Universitetinin və İstanbul Universitetinin təşkilatçılığı ilə dahi şair Nizami Gəncəvinin 880 illiyi ilə əlaqədar keçirilən beynəlxalq elmi konfransda iştirak edən tanınmış alimlər də məhz şairin yaratdığı əvəzsiz xəzinənin əhəmiyyətindən danışmışlar.

Konfrans iştirakçıları əvvəlcə Gəncənin mərkəzi meydanında Ulu Öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri qoymuş, sonra dahi şairin məqbərəsini ziyarət etmiş, Nizami Muzeyi ilə yaxından tanış olmuşlar. Universitetin 2-ci korpusunun akt zalında öz işinə başlayan beynəlxalq konfrans Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlamışdır. Sonra torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan mərd oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Konfransı giriş sözü ilə universitetin rektoru, professor Yusif Yusibov açaraq qonaqları salamlamış və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə Azərbaycan xalqının göstərdiyi şücaətdən danışmış, istər müharibədən əvvəl, istərsə də müharibə dövründə qardaş Türkiyənin, eləcə də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanı dəstəkləməsini iki qardaş ölkənin həmişə bir yerdə olmasının göstəricisi kimi dəyərləndirmişdir. Rektor əsərlərində insanları daim sülhə, sabitliyə səsləyən dünya şöhrətli şair və mütəfəkkir Nizami Gəncəviyə həsr olunmuş bu konfransın əhəmiyyətindən danışmışdır. Diqqətə çatdırmışdır ki, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Bu nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamışdır. Nzami irsi hər zaman dünya alimlərinin diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami irsinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, elmi-tədqiqat işləri aparılmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Prezident İlham Əliyevin 2021-ci ili "Nizami Gəncəvi ili" elan etməsi isə dahi şairin irsinin daha dərindən öyrənilib tədqiq edilməsində yeni imkanlar açmışdır. Belə ki, qədim və zəngin Azərbaycan mədəniyyətinin nadir simalarından olan dahi şair, humanist mütəfəkkir Nizami Gəncəvinin 880 illiyi nəinki ölkəmizdə, eləcə də bir çox xarici ölkələrdə təntənə ilə qeyd edilmişdir ki, bu da milli-mənəvi dəyərlərimizin dövlət səviyyəsində himayə edilməsinin nümunəsi kimi qiymətləndirilə bilər. Bundan başqa, keçirilən tədbirlərdə qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığından ətraflı bəhs edilmişdir.

Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək dahi şairin 880 illiyi ilə əlaqədar dövlət başçısının imzaladığı sərəncama uyğun olaraq şairin vətənində görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışmış və konfransın işinə uğurlar arzulamışdır.

Türkiyə Respublikasının Gəncədəki baş konsulu Zeki Öztürk çıxışında iki qardaş ölkənin bütün sahələrdə, o cümlədən mədəni əlaqələrin genişləndirilməsində həyata keçirdiyi tədbirlərdən danışmış, dahi Nizami Gəncəvinin Türkiyədə dərindən öyrənilməsi və tədqiq olunması sahəsində əldə edilən uğurlardan danışmışdır.

Konfransda İstanbul Universitetinn rektoru, professor Mahmut Ak, İzmir Katip Çelebi Universitetinin rektoru, professor Saffet Köse, Gəncə Dövlət Universitetinin müəllimləri Vüsal İsgəndərov və Bayram Apoyev, İstanbul Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor İlyas Topsakal çıxış edərək dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi ilə əlaqədar keçirilən bu konfransın əhəmiyyətindən danışmış, şairin əsərlərindən nümunələr səsləndirərək təhlil etmişlər.

Nizami Gəncəvi və Yunuz Əmrə panellərində isə İstanbul Universitetinin Türkşünaslıq İnstitutunun direktoru Mustafa Balçının, həmin universitetin Ədəbiyyat fakultəsinin dekanı Hayati Develinin məruzələri dinlənilmişdir.

Həmin gün Gəncə Dövlət Universitetinin 5-ci tədris binasında yerləşən "Yunus Əmrə" adına mühazirə otağının, həmçinin universitetin əsas tədris binasında "Nizami Gəncəvi" adına konfrans zalının açılışları olmuşdur.

Konfrans öz işini bölmə iclaslarında davam etdirmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

"AZƏRBAYCAN"a cavab verirlər

# "Akt tərtib olunmuş və mülkiyyətçiyə məktub göndərilmişdir"




Qəzetimizin 19 avqust 2021-ci il tarixli nömrəsində dərc edilmiş "Paytaxtın mərkəzindəki sahibsizlik abidəsi" başlıqlı məqalə ilə bağlı redaksiyamıza Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən cavab gəlmişdir. Xatırladaq ki, məqalə paytaxtdakı keçmişdə "Fantaziya" hamamı kimi tanınan tarixi əhəmiyyətli binanın baxımsızlıq üzündən bərbad hala düşməsindən, təsirli tədbir görülməzsə tezliklə dağılıb gedəcəyindən bəhs olunurdu. Xidmətin rəisi Azad Cəfərlinin imzaladığı məktubda yazılır:

*"Bakı şəhəri, Yasamal rayonu, D.Əliyeva küçəsi, 114 ünvanında yerləşən "Fantaziya" hamamının (inventar №-si 3731) baxımsız vəziyyətdə olması ilə bağlı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ünvanladığınız məktuba Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində baxılmışdır.*

*Bildiririk ki, Dövlət Xidmətinin əməkdaşları tərəfindən sözügedən hamama baxış keçirilmiş və hamamın mövcud vəziyyəti ilə bağlı akt tərtib edilmişdir.*

*Eyni zamanda hamamın balans mənsubiyyətinin və mülkiyyətçisi barədə məlumatın müəyyən edilməsi üçün tərəfimizdən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə, eləcə də Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə məktublar ünvanlanmış və abidənin xüsusi mülkiyyətdə olduğu müəyyən edilmişdir.*

*"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən, mülkiyyətində və ya istifadəsində abidələr olan fiziki və ya hüquqi şəxslər abidələrin qorunması, tədqiqi və onlardan istifadə edilməsi qaydalarına ciddi əməl etməlidirlər.*

*Qanunun qeyd olunan maddəsinə uyğun olaraq, abidənin qorunmasının təmin edilməsi məqsədilə mülkiyyətçiyə müvafiq məktubla müraciət olunmuşdur".*

## Problem isə akt və məktubla həll olunan deyil

Vəssalam! Adından da göründüyü kimi, təkcə Bakıda yox, bütün ölkə ərazisində mədəni irsin qorunması, inkişafı və bərpasına birbaşa cavabdeh olan dövlət qurumu paytaxtın mərkəzindəki tarixi binanın göz görə-görə dağıdılmasının qarşısını yalnız "akt" tərtib etmək və mülkiyyətçiyə "müvafiq məktub" göndərməklə almaq istəyir, o da hələ doğrudursa. Lap doğru olsa belə, kim zəmanət verə bilər ki, kimliyi nədənsə gizlin saxlanılan mülkiyyətçi həmin akt və məktuba məhəl qoyaraq alqı-satqı zamanı üzərinə götürdüyü öhdəliyə əməl etmək üçün təsirli tədbirlər görəcək. İnanılası deyil. Əvvəla, ona görə ki, məqalənin dərcindən xeyli (təxminən 3 ay!) vaxt keçsə də, binada hər hansı yenidənqurma və təmir işlərinin getdiyini görən yoxdur. Sonrası da, xüsusən Bakıda birinci hal deyil ki, şəhərin tarixi memarlıq abidələri sayıla bilən binalar özəlləşdirildikdən sonra ən müxtəlif bəhanələrlə yerləyeksan olunaraq yerində ya hündürmərtəbəli yaşayış binaları, ya da ticarət mərkəzləri (bundan savayı əllərindən nə gəlir ki!?) tikiblər.

Göz gördüyündən qorxar. İndi bundan sonra bizi heç kim əmin edə bilməz ki, məqalədə haqqında söz açılan "Fantaziya" hamamının da taleyi belə olmayacaq. Zarafat deyil, bu tarixi bina Bakının mərkəzində yerləşir və həmin ərazidə torpağın kvadratmetri "od qiyməti"nədir. Bizim iş adamlarının hamısını demirik, əksəriyyəti üçün isə qazancın tarixdən irəli olması sirr deyil.

Elə ona görə də Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti problemin həllini istəyirsə, akt tərtib etməklə və mülkiyyətçiyə məktub göndərməklə kifayətlənməməli, bu işə özəlləşdirməyə birbaşa cavabdeh olan İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətini cəlb etməlidir. Lazım gələrsə, alqı-satqı müqaviləsi ləğv olunaraq bina yenidən dövlətə qaytarılmalıdır. Bunun üçün əsas binanın hazırkı baxımsız vəziyyətidir. Üstəlik, problemin bu cür həlli həm də gələcəkdə belə sevdaya düşmək istəyənlər üçün dərs olar. Dərs olar ki, ölkənin, xalqın tarixi irsi alver predmeti deyil. Yalnız bu yolla Bakının növbəti tarixi memarlıq incilərindən məhrum olmasının qarşısını almaq mümkündür.

***"Azərbaycan"***

# Bolqarıstanda türk fırtınası

## Avropa İttifaqına üzv ölkədə türkmənşəli namizədlər böyük üstünlük qazandılar






Bolqarıstanda prezident və parlament seçkiləri keçirilib. Seçkilərdə 20 partiya və yeddi koalisiya iştirak edib. Dövlət başçısı vəzifəsi uğrunda isə 23 namizəd mübarizə aparıb.

Qeyd edək ki, parlament seçkiləri bu il ərzində artıq üçüncü dəfədir ki, keçirilir. Səbəb aprel və iyul aylarında seçkilərdən sonra heç bir partiyanın Nazirlər Kabinetini formalaşdıra bilməməsidir.

Bu seçkilərdə diqqətçəkən yeganə məqam Bolqarıstan əhalisinin təxminən 10 faizini təşkil edən türk və müsəlmanların dəstəklədiyi "Haqq və Azadlıqlar Hərəkatı" Partiyasının ciddi siyasi qüvvəyə çevrilməsi oldu. Hətta bundan sonra türklərin istənilən hökumətdə təmsil olunma ehtimalları da çox real görünməyə başladı. Siyasi səhnədə hansı partiyanın önə çıxmasından asılı olmayaraq, türklər Bolqarıstanın siyasətinə təsir edən faktora çevrilmək şansı qazandılar.

İlkin məlumatlara görə, seçicilərin 25,91 faizi "Dəyişiklikləri davam etdiririk" Partiyasına səs verib. İkinci yerdə "Bolqarıstanın Avropa İnkişafı Vətəndaşları" Partiyası (GERB) ilə Demokratik Qüvvələrin İttifaqı koalisiyasıdır - 21,42 faiz səs. Bundan başqa, parlamentin yeni tərkibinə "Haqq və Azadlıqlar Hərəkatı" Partiyası (14,02 faiz), "Belə xalq var" (10,08 faiz), Bolqarıstan Sosialist Partiyası (9,99 faiz), "Demokratik Bolqarıstan" Birliyi (6,11 faiz) və "Dirçəliş" Partiyası (5,19 faiz) daxil ola bilər. Digər siyasi qüvvələr dörd faizlik baryeri dəf etmir.

Dövlət başçısı seçkilərinə gəldikdə isə, burada hazırkı Prezident Rumen Radev liderlik edir. Onu 49,15 faiz vətəndaş dəstəkləyir. İkinci yerdə müstəqil namizəd, Sofiya Universitetinin rektoru Anastas Gercikov - 22,28, üçüncü yerdə isə türklərin "Haqq və Azadlıqlar Hərəkatı"nın namizədi Mustafa Qaradaydır - 12,75 faiz.

"Haqq və Azadlıqlar Hərəkatı"nın sədri olan Mustafa Qaraday 1970-ci il mayın 8-də Smolyan vilayətinin Qarabulaq şəhərində anadan olub. O, Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetini bitirib və 1996-2001-ci illərdə Yeni Bolqar Universitetində professor olaraq çalışıb.

1991-ci ilin mayından Qaraday "Haqq və Azadlıqlar Hərəkatı"nın üzvü olub, 1998-2003-cü illərdə isə gənclər təşkilatına rəhbərlik edib. 2015-ci ilin dekabrında Mustafa Qaraday hərəkatın sədri seçilib.

2017-ci ildə keçirilən parlament seçkilərində "Haqq və Azadlıqlar Hərəkatı" Partiyası 10,8 faiz səs toplayaraq 240 yerlik parlamentdə 26 kürsüyə sahib olub. Bundan başqa, Avropa Uğrunda Demokratların və Liberalların Alyansının (ALDE) üzvü kimi Hərəkat Avropa parlamentində 4 deputat mandatına sahibdir.

Parlamentdə 3-cü ən böyük siyasi qüvvə sayılan "Haqq və Azadlıqlar Hərəkatı" Partiyası sosial liberalizm və milli azlıqların hüquqlarının müdafiəsi istiqamətində çalışır.

Seçkilərin ilkin nəticələrinə əsasən, Qaradayın və onun partiyasının ilk üçlükdə qərarlaşması parlamentdə daha geniş fraksiyanın yaranacağına və koalision hökumətdə təmsil olunacağına yol açır. Avropa İttifaqının üzvü olan ölkədə baş vermiş bu fenomenal hal ekspertlər tərəfindən Bolqarıstanda türk fırtınası kimi qiymətləndirilir.

Seçkilərin ikinci turu noyabrın 21-də keçiriləcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Dövlət Mükafatları Komissiyası 2022-ci il üçün dövlət mükafatlarına əsərlərin (işlərin) qəbulunu elan edir

Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyası 2022-ci il üçün dövlət mükafatlarına əsərlərin (işlərin) qəbulunu elan edir.

Komissiyadan AZƏRTAC-a verilən məlumata görə, müvafiq sənəd və materiallar Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 212 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının Əsasnaməsi"ndə göstərilən qaydalara uyğun hazırlanmalı və 2022-ci il aprelin 1-dək komissiyaya təqdim edilməlidir.

Dövlət mükafatı Azərbaycan Respublikasının vətəndaşı olan müəlliflərə elmin, texnikanın, memarlığın, mədəniyyətin və ədəbiyyatın inkişafına mühüm töhfələr verən əsərlərə, fundamental və tətbiqi elmi araşdırmalara, dövlətçilik, iqtisadi inkişaf və digər sahələrdəki elmi kəşflərə və ixtiralara, qabaqcıl sənaye-texniki təcrübənin tətbiqinə və nəzəri tədqiqatlara, habelə yeni material və mexanizmlərin yaradılmasına görə verilir.

Əsərlər Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti, dövlət idarə və təşkilatları, ali təhsil, elmi-tədqiqat və layihə-konstruktor müəssisələri, ictimai və yaradıcı birliklər tərəfindən Dövlət mükafatına təqdim olunur.

Fundamental və tətbiqi elmlərə aid əsərlər müvafiq elmi şuralarda müzakirədən sonra və ya Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən, bədii əsərlər isə yaradıcı ittifaqların qərarı ilə Dövlət mükafatına təqdim edilir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilən digər mükafatlara, eləcə də başqa ölkələrin dövlət mükafatlarına layiq görülmüş əsərlər Dövlət mükafatına təqdim edilə bilməz.

Dövlət mükafatı bir şəxsə bir dəfədən artıq verilə bilməz. Bir müəllifə eyni zamanda bir neçə əsərə görə Dövlət mükafatı verilmir.

Bir qurum tərəfindən Dövlət mükafatına yalnız bir əsər təqdim edilə bilər.

Dövlət Mükafatları Komissiyasının ünvanı: AZ 1066, Bakı şəhəri, Lermontov küçəsi, 68. Azərbaycan Respublikasının Nazirlər Kabineti.

Əlaqə telefonu: 492-22-65.

E-mail: **nk@nk.gov.az**

# Qobustan Qoruğunda "Yurdda bayram" adlı tərəkəmə festivalı təşkil edilib

Noyabrın 15-də Mədəniyyət Nazirliyinin və Qobustan Milli Tarix-Bədii Qoruğunun təşkilatçılığı ilə "Yurdda bayram" adlı tərəkəmə festivalı təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Qobustan Milli Tarix-Bədii Qoruğunda keçirilən festivalın əsas məqsədi zəngin elat mədəni irsinin təbliği və iştirakçıları onların həyat tərzi ilə canlı şəkildə tanış etməkdir.

Festivalın əhəmiyyətindən danışan mədəniyyət naziri Anar Kərimov deyib ki, Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusu ədalətsizliyə son qoyub: "Biz göstərdik ki, Azərbaycan xalqı, ümumiyyətlə, türk dünyası ədalətsizliyə boyun əyən xalq deyil. Tarix göstərir ki, türk dünyası hər zaman dünyaya ədalət, nizam, barışıq gətirəndir".

"Yurdda bayram" adlı tərəkəmə festivalının Azərbaycan xalqının tarixi köklərə, adət-ənənələrə bağlı olduğunu göstərən bir tədbir olduğunu bildirən nazir vurğulayıb ki, belə tədbirləri tək Qobustanda yox, azad olunan Qarabağda da keçirəcəyik. Bundan sonra hər il belə tədbirlərin keçirilməsini planlaşdırırıq. Bu festivalın keçirilməsi onu göstərir ki, biz ənənələrimizə sadiq qalırıq. Həmçinin belə tədbirlərlə turist axınına da nail olacağıq. Çox şadam ki, burada qazilərimiz də iştirak edirlər. Onlara sonsuz təşəkkür edirəm, var olsunlar. Allah onları qorusun, şəhidlərimizə rəhmət etsin. Yaşadığımız tarixi günləri onlara borcluyuq.

Festivalın proqramına "Yurd" musiqili kompozisiyanın nümayişi, xalçaçılıq və zərgərlik nümunələrindən, o cümlədən tərəkəmələrin məişətini, yaşayış tərzini, təsərrüfatını əks etdirən nümunələrdən və milli geyimlərdən ibarət sərginin nümayişi və xeyriyyə məqsədi ilə Daun sindromlu uşaqların əl işlərindən ibarət sərgi-satışın həyata keçirilməsi daxil edilib.

İştirakçılar festival meydanında qurulmuş tərəkəmə obasındakı çadırlarda tərəkəmələrin yeyinti məhsulları və təsərrüfat həyatı, onların mətbəx mədəniyyəti ilə tanış olublar və zəngin tərəkəmə süfrəsinin yeməklərindən dadıblar.

Bundan başqa, tərəkəmələrin maldarlıq təsərrüfatına aid heyvanlardan ibarət təmaslı minizooparkla tanışlıq və uşaqlar üçün təşkil olunmuş "Oxatma meydançası" iştirakçılara maraqlı anlar yaşadıb. Tədbirin sonunda canlı musiqilər səsləndirilib. Cəngi sədaları altında kəndirbazlar və pəhləvanlar məharətlərini göstəriblər.

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi İsmayıllı rayonu, "Lahıc" Dövlət Tarix-Mədəniyyət Qoruğunda yerləşən 5 memarlıq abidəsində bərpa işlərinin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun satın alınması üçün təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda təmir və bərpa işləri üzrə təcrübəsi olan və ixtisaslı işçi heyətinə malik rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilər.

Təkliflər sorğusunda iştirak etmək istəyən iddiaçılar müəyyən məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər:

**AZN hesabı**
**Emitent**
**Bankın adı:** Dövlət Xəzinədarlığı Agentliyi
**Bankın kodu:** 210005
**VÖEN:** 1401555071
**M/h:** AZ41NABZ01360100000000003944
**SWIFT:** CTREAZ22
**Alan:** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
**VÖEN:** 1404365471
**H/h:** AZ53CTRE00000000000008498501
**Büdcə səviyyəsinin kodu -7**
**Büdcə təsnifatının kodu -142330**

Təkliflər sorğusunda iştirak haqqı 400 manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *təklif (qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir);*
- *təklif dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *iddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında dövlət orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatı;*
- *məhkumluq barədə arayış;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *təkliflər sorğusuna dair təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının son 3 (üç) il ərzində oxşar işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *peşəkar işçi heyəti və texniki avadanlığa dair məlumat;*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair sənəd;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya;*
- *digər sənədlər (təkliflər sorğusunun Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla təkliflər sorğusunda iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar təkliflər sorğusuna dair təkliflərini qapalı, möhürlənib imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində əsli və surəti yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük üzərində əsli sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların təkliflər sorğusuna təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, möhürlənib imzalanmış ikiqat zərflərdə 30 noyabr 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Nizami küçəsi, 96E, Landmark I, 3-cü mərtəbəyə (əlaqələndirici şəxs - Mehman Bayramova) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01 dekabr 2021-ci il saat 12:00-da Bakı şəhəri, Nizami küçəsi, 96E, Landmark I, 3-cü mərtəbədə açılacaqdır. Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## BİLDİRİŞ

10 noyabr 2021 -ci il tarixdə keçirilmiş Səhmdarların ümumi iclasında qəbul edilmiş qərara əsasən "Bakı Dəmir-Beton 8" ASC ləğv edilmişdir.

Bunu əsas götürərək "Bakı Dəmir-Beton 8" ASC bəyan edir:

| s/s | Müəssisənin adı | VÖEN | Debitor borcu AZN (ƏDV daxil) | Kreditor borcu |
|---|---|---|---|---|
| 1 | NORT VEST KONSTRAKŞN MMC | 1001297281 | 30178.49 | |
| 2 | Paşa İnşaat MMC | 1700665151 | 6574.96 | |
| 3 | Dividend | | | 1316.41 |
| | | | | |
| | Yekunu: | | 36753.45 | 1316.41 |

**"Bakı Dəmir-Beton 8" ASC**

## BİLDİRİŞ

Mərkəzi Bank tərəfindən Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan mebel avadanlıqları, habelə qapı-pəncərə sistemləri üçün ehtiyat hissələrinin satın alınması və Azərbaycan Respublikası Mərkəzi Bankının avtomatik telefon stansiyasının (ATS) təkmilləşdirilməsi işlərinin satın alınması ilə bağlı kotirovka sorğuları Satınalmalar komissiyasının 05 noyabr 2021-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Səbail rayonu Neftçilər prospekti, 2 ünvanında yerləşən yeni inzibati binasını soyutma, isitmə, havalandırma və isti su ilə təmin etmək üçün soyutma, havalandırma qurğuları, istilik qazanları və sistemlərinə illik texniki xidmətin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 noyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Səbail rayonu Neftçilər prospekti, 2 ünvanında yerləşən yeni inzibati binasını elektrik enerjisi ilə təchiz etmək və eyni zamanda binanın yanğın təhlükəsizliyini təmin etmək üçün inzibati binada 6\04 kV, 2x1600 kVA yarımstansiya, gərginlik düzləndiricisi, fasiləsiz qida mənbəyi, dizel generator qurğuları və yanğın sistemlərinə illik texniki xidmətin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 24 noyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı Zebra 110 Xİ4 printeri üçün etiketin satın alınması üzrə kotirovka sorğusu elan edir

Kotirovka sorğusu üzrə Əsas şərtlər toplusunu əlaqələndirici şəxslərdən əldə etmək olar.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 01 dekabr 2021-ci il saat 17:30-dək əlaqələndirici şəxslər tərəfindən qəbul ediləcək və 02 dekabr 2021-ci il saat 10:00-da Satınalmalar komissiyası tərəfindən Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxslər - Elvin Şirdanov, telefon - 493 11 22 (daxili 428); Elnur Musayev, telefon - 493 11 22 (daxili 490).

***Satınalmalar komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Sevinc Hüseynovaya anası
**MAYA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyevə həyat yoldaşı
**SUMARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Vahid və Vüqar Novruzovlara əzizləri
**MEHRİ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzova anası
**MEHRİ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Mənzərə Sadıqovaya əzizi
**MİNURƏ NOVRUZOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Əliyev Azərbaycanın tanınmış memarı və rəssamı
**RASİM ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə respublikanın Əməkdar memarı, Dövlət mükafatı laureatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli, Memarlar İttifaqının İdarə Heyətinin üzvü
**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Ağdamdan Vaqif Həsənov İlham və Azər Nəsirovlara ataları
**QƏNBƏR NƏSİROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvləri respublikanın Əməkdar memarı, Dövlət mükafatı laureatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli, Memarlar İttifaqının İdarə Heyətinin üzvü
**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Dövlət mükafatı laureatı, Əməkdar memar
**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Tədris-metodiki mərkəzin direktor müavini Nəvai Əliyevə anası
**BƏSURƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qobustan rayonundan Adil Məmmədov Vahid və Vüqar Novruzovlara əzizləri
**MEHRİ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Daşdəmir Tağıyevə əzizi
**ŞÖLƏ ŞİRƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Dövlət mükafatı laureatı, Əməkdar memar
**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Əfsanə Şirəliyevaya anası
**ŞÖLƏ ŞİRƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Göyçaydan Mehdi Səlimzadə görkəmli memar, Dövlət mükafatı laureatı
**RASİM ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Göyçaydan Mehdi Səlimzadə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Zakir Quliyevə əzizi
**ELNUR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Göyçaydan Mehdi Səlimzadə Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzova anası
**MEHRİ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Hacıbala Hacıyevə qardaşı
**SƏFTƏR HACIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5590
Sifariş 2303
Qiyməti 40 qəpik